

Milli azadlıqdan şirin nemət yoxdur!

*H. Əliyev*

# Yeni situasiya formalaşıb

## Sülhməramlıların fəaliyyəti...

Bax səh. 3

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 7 oktyabr 2023-cü il, şənbə / № 183 (6527). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

## Korrupsiya AP-nin kabusuna çevrilib...

## Qərəzli “qətnamə” və ya erməni lobbisinin “əsirləri”...



Bax səh. 2

## Vətən müharibəsinin 11-ci günü

### 07.10.2020

**• Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib.**

**• Azərbaycan Prezidenti İlham Əliyev CNN-Türk televiziyasına müsahibə verib.**

**• Prezident İlham Əliyev “Euronews” televiziyasına müsahibə verib.**

**• “Azərkosmos” ASC işğaldan azad olunmuş Suqovuşan ərazisinin “Azersky” peykindən əldə edilmiş təsvirini yayıb.**

### 08.10.2020

**• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində 8 oktyabr saat 13:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 31-ə, xəsarət alanların sayı isə 154-ə çatıb, 928 ev, 133 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb.**

**• Düşmən ordusu cəbhənin Füzuli istiqamətində dinc əhaliyə qarşı qadağan olunmuş fosforlu bombalardan istifadə edib.**

**• Ermənistan silahlı qüvvələri Bərdə şəhərini növbəti dəfə artilleriya atəşinə tutub.**

### 09.10.2020



İlham Əliyev
@azpresident

Bu gün Azərbaycan ordusu Hadrut qəsəbəsini, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracalı, Əfəndilər, Süleymanlı, Sur kəndlərini işğaldan azad edib. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

6:53 PM · Oct 9, 2020 · Twitter Web App

**• Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edib.**

**• Prezident İlham Əliyev “CNN International” televiziya kanalının “Connect the World” verilişində müsahibə verib.**

**• “Sky News” telekanalı Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsini yayımlayıb.**

# Avropa Parlamentinə cavab bəyanatı qəbul edilib

Bax səh. 3





Bax səh. 4

## YAP Sədrinin müavini ilə AK Parti Sədrinin birinci müavini arasında görüş keçirilib

## Türkiyədən sülh üçün növbəti addım



Bax səh. 5

# Valdayda Cənubi Qafqaz müzakirəsi...

Bax səh. 3

## Protokol imzalanıb

BP şirkətinin Azərbaycan ofisində Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və BP şirkəti arasında təhlükəsizlik və mühafizə sahəsində qarşılıqlı əməkdaşlıq barədə Protokol imzalanıb. Sənədi agentliyin rəisi, general-mayor İlqar Abbasov və BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz imzalayıblar. Bununla bağlı keçirilmiş tədbirdə çıxış edən Qəri Counz tədbiri açıq elan edərək agentliyin nümayəndə heyətini salamlamış, daima qarşılıqlı əməkdaşlığa görə agentliyin əməkdaşlarına minnətdarlığını bildirmiş, imzalanacaq protokolun şirkətlə agentlik arasındakı münasibətləri yeni və daha yüksək səviyyəyə qaldıracağını qeyd edib...

Bax səh. 6

## Mina terroru davam edir

Oktyabrın 5-də saat 17 radələrində işğaldan azad edilən ərazidə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu xidmət vaxtı piyada əleyhinə minaya düşüb. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, 1999-cu il təvəllüdlü S. Adıgözəlov minaya düşməsi nəticəsində ayağından xəsarət alıb. O, dərhal xəstəxanaya çatdırılıb. Hadisə ilə bağlı araşdırma aparılır.

Ümumiyyətlə, Azərbaycan dünyada mina ilə çirkləndirilən əsas ölkələrdən biridir. Ermənistan 30 illik işğal dövründə çoxlu sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Azərbaycan ərazilərində kütləvi şəkildə minalar və digər partlayıcı qurğuların yerləşdirilməsi bərpa və...

Bax səh. 2

## İki bədbəxt birlikdə xoşbəxtdirmi?

İspaniyanın Qranada şəhərində oktyabrın 5-də keçirilən Avropa Siyasi Birliyinin Sammiti çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin hələ xeyli müddət bundan əvvəl anonsu verilən görüşü baş tutmadı. Bunun səbəbi ilk növbədə formatla bağlı idi. Məlum oldu ki, liderlərin görüşünün Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, eləcə də Almaniya kansleri Olaf Şoltsun və Fransa prezidenti Emmanuel Makronun iştirakı ilə keçirilməsi nəzərdə tutulur. Azərbaycan Brüssel formatında tərəf saxlayan Fransanın qatılmasına etiraz edir. Lakin ölkəmizin haqlı etirazına rəğmən, Emmanuel Makronun görüşə qatılması planlaşdırılıb. Belə olan halda...

Bax səh. 6

## Humanitar yardım, yoxsa Ermənistan üzərindən yuyulan çirkli pullar?

Hazırda Avropa İttifaqı (Aİ) Ermənistana növbəti yardım paketini reallaşdırmaqdadır. “Aİ Ermənistana 25 milyon avrodan çox yardım ayıracaq”. Bunu Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilən Avropa Siyasi Birliyinin Sammiti ərəfəsində deyib. Onun sözlərinə görə, Aİ Ermənistana indiyə qədər 5,2 milyon avro ayırıb: “Bu məbləğ artıq 10,2 milyon avroya çatdırılıb. Daha 15 milyon avro yardım ayrılacaq”, - deyə Ursula fon der Lyayen vurğulayıb...

Bax səh. 7

## Yeni qaydalar...





Bax səh. 7

## İKT-dən geniş istifadə ölkənin hərtərəfli inkişafına xidmət edir



Bax səh. 7

# Strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələri

## Azərbaycan Prezidenti Serbiya Milli Assambleyasının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliçi qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin zəngin tarixə malik olduğunu deyərək bunun qarşılıqlı dəstəyə əsaslanan münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaratdığını bildirdi, Serbiyaya səfərini məmnunluqla xatırladı.

İqtisadi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev investisiya, enerji, sənaye sahələri ilə bağlı fəal əməkdaşlığın həyata keçirildiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də önəmini qeyd etdi.

Azərbaycan Prezidenti Vladimir Orliçin səfərinin dinamik şəkildə inkişaf edən əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Qonaq, ilk növbədə, Serbiya Prezidenti Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Serbiya Milli Assambleyasının sədri ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Serbiyanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində haqlı mövqelərini dəstəklədikləri qeyd edildi, münasibətlərimizin strateji tərəfdaşlıq prinsiplərinə, qarşılıqlı anlaşma və qarşılıqlı hörmətə əsaslandığı vurğulandı, parlamentlərarası əlaqələrin və parlamentlərarası beynəlxalq təşkilatlarda əməkdaşlığımızın vacibliyi vurğulandı.

# Azərbaycan Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verib

## ÜST-ün Avropa üzrə regional direktoru Prezident İlham Əliyevin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

AZƏRTAC xəbər verir ki, Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.

Qonaq qlobal səhiyyə liderliyi sahəsində Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi həyata keçirdiyi fəaliyyətin çox yüksək qiymətləndirildiyini qeyd etdi. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda onlayn Zirvə görüşünün keçirilməsinə, Azərbaycanın vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olmasına və həyata keçirdiyi fəaliyyətə görə minnətdarlığını bildirdi. Hans Henri Kluge Azərbaycanın pandemiya dövründə 80-dən artıq ölkəyə dəstək göstərdiyini qeyd etdi, ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində yaratdığı COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin çox səmərəli olduğunu və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verdiyini dedi.

Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

Hans Henri Kluge BMT-nin rezident əlaqələndirici ofisinin və ÜST-ün Bakı ofisinin nümayəndələrinin də daxil olduğu missiyanın Azərbaycanın Qarabağ bölgəsinə həyata keçirdiyi səfərinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev COVID-19-a qarşı mübarizədə ÜST-ün ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi 80-dən artıq ölkəyə yardım etməsindən, Qoşulmama Hərəkatı çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sistemi yaradılmasından və vaksin həmrəyliyi ilə bağlı səylərimizdən danışdı.



Dövlətimizin başçısı Azərbaycanın milli, regional və beynəlxalq səviyyədə yardım proqramlarını həyata keçirdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı bildirdi ki, Qarabağda yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub.

Dövlətimizin başçısı vurğuladı ki, "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə dəstək göstərilib.

Prezident İlham Əliyev Xankəndidə yanacaq stansiyasında baş vermiş partlayışdan sonra Azərbaycan yanğınsöndürənlərinin bu yanğının qarşısını aldığını, zərərçəkmiş insanlara dəstək göstərildiyini, hazırda Azərbaycanın tibbi heyətinin Xankəndidə yerli əhaliyə xidmətlər göstərdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələrinin yerlərdə xidmət göstərdiklərini, əhalinin qeydiyyata alınması prosesinin başlandığını, bunun üçün ayrıca portalın fəaliyyət göstərdiyini bildirdi, gündəlik ehtiyacların ödənilməsi və qida təchizatı üçün aidiyyəti qurumların yerində xidmət apardıqlarını dedi.

Dövlətimizin başçısı ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, elektrik təchizatının həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının hazır olmasının və həyata keçirilməsinin göstəricisidir.

Görüşdə yaxın vaxtlarda BMT-nin Azərbaycanda rezident əlaqələndirici ofisinin təşkilatın aidiyyəti ixtisaslaşmış qurumlarının nümayəndələri ilə birlikdə ərazilərə yenidən səfər edəcəkləri diqqətə çatdırıldı, ölkəmizin bu prosesi dəstəklədiyi qeyd olundu.

# Azərbaycan-İran dostluğu və əməkdaşlığı bütün bölgə üçün önəmli amildir

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının İran tərəfdən həmsədri Mehrdad Bəzrpaşı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı dünən Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında keçirilmiş avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin önəmini qeyd edərək, bunun dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirərək, bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlinin qoyulmasının bu yolların şaxələndirilməsi baxımından da önəmini qeyd etdi.

Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgə üçün sabitliyə və əməkdaşlığa xidmət edəcək.

Dövlətimizin başçısı, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı və ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi istiqamətində aparılan işlərin önəmini qeyd etdi.

İkitərəfli münasibətlərimizin gündəliyinin yalnız nəqliyyat sektorunu deyil, eyni zamanda, daha geniş sahələri əhatə etdiyini deyən Azərbaycan Prezidenti Hökumətlərarası Komissiyanın fəaliyyətini yüksək qiymətləndirdi, bütün sahələr üzrə yaxşı nəticələrin əldə edildiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan-İran dostluğunun və əməkdaşlığının bütün bölgə üçün önəmli amil olduğunu vurğuladı.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək, bu xüsusda 3+3 əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi, tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi.

Mehrdad Bəzrpaş ilk növbədə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycanın Qarabağ bölgəsinin reinteqrasiyası ilə bağlı təbriklərini çatdırdı və bunu çox mühüm hadisə kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın pozulmuş haqlı və ədalətli mövqeyi 30 ildən sonra xoşbəxtlikdən öz yerini tutdu və ölkə suverenliyini bərpa etdi.

Mehrdad Bəzrpaş region ölkələri və xalqlarının bir-biri ilə dərin tarixi və mədəni əlaqələrə malik olduğunu deyərək, Cənubi Qafqazda sülhün region üçün böyük perspektivlər yaradacağını bildirdi.

# Korrupsiya AP-nin kabusuna çevrilib...

## Avroparlament "köhnə qitə"nin demokratik imicinə qarşı

Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlayan, BMT TŞ-nın məlum qətnamələrini yerinə yetirməyən, beynəlxalq aləmin tələblərinə məhəl qoymayan Ermənistanın korrupsioner havadarları yenidən iş başındadır. Söhbət Avropa İttifaqının ölkəmizə qarşı növbəti qərəzli münasibətindən gedir. Məsələyə keçməmişdən öncə vurğulamaq lazımdır ki, ötən 30 ildə Azərbaycan dövləti işğala məruz qalan tərəf olsa da, sülh prinsipini hər zaman ön sırada tutub, problemin danışıqlar yolu ilə həllinə üstünlük verib. Amma adını "beynəlxalq aləm" qoymuş təsisatlar, təşkilatlar Azərbaycanın sülhpərvər mövqeyini dəstəkləmək, onu dəyərləndirmək əvəzinə, daha çox işğalçının yanında yer alıblar. Təbii ki, bu məsələdə xaricdəki erməni lobbisinin "xidməti" xüsusi "dəyərləndirilməlidir".

### Qərəzli "qətnamə" və ya erməni lobbisinin "əsirləri"...

Beynəlxalq təşkilatların üzvlərinin, hətta rəsmilərinin belə rüşvətlə ələ alınması, korrupsiya girdabına düşməsi müasir dünyada tez-tez rast gəlinən presedentlərdən sayılır. Maraqlıdır ki, hətta bütün "maskası" üzündən enən bu kimi təşkilatlar sonradan da ədalətsiz mövqedən əl çəkmir, öz addımlarını davam etdirirlər...

### Eva Kailinin və Bob Menendezin digər "şərikləri" - Avropanın "kabusu"...

Məsələn, Avropa Parlamenti kimi... Mövzuya keçməmişdən qabaq bir haşiyəyə çıxaq - həyatının 3 ilini (1845-1848) Brüsseldə yaşayan sosializmin ideoloji rəhbərlərindən sayılan Karl Marks yazırdı ki, korrupsiya Avropa üzərində kabusa çevrilir. Filosof sanki bugünkü Avropanın mənzərəsini iki əsrə yaxın keçmişdə Avropanın "siyasi paytaxtından" təsvir edirdi. Bu gün özünü demokratiya keşikçisi elan etmiş Avropa təsisatlarının düşdüyü durum Marksın təsviri ilə analogiya təşkil edir. Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi son qərəzli, ədalətsiz qətnamənin ortaya çıxma səbəbləri də məhz Avropa üzərindəki korrupsiya kabusunun "siluetidir".

Nəzərə alsaq ki, Azərbaycan bu gün Avropa İttifaqının üzvü olan ölkələrin enerji təminatında mühüm rol oynayır, ümumilikdə Aİ ilə mühüm enerji dialoqu aparır, Avropa Parlamentinin belə bir əsassız sənəd qəbul etməsi anlaşılan deyil. Xüsusilə qeyd edilməlidir ki, Avropa Parlamentinin imici artıq uzun müddətdir ki, yerlərdə sürünür - adı milyonluq korrupsiya faktlarında hallanır və ittiham edilir. Nə üçün öz "ayıbına kor olmayan" Avropa Parlamenti yenidən ədalətsiz addımlara əl atır? Yuxarıda qeyd etdiyimiz "korrupsioner havadarlar" ifadəsi də məhz buradan qaynaqlanır. Qərbin ermənipərəst siyasətçilərinin, qurumlarının üzündən maskalar endikcə əsl sima(sızlıq)ları üzə çıxır. Bir müddət öncə anti-Azərbaycan mövqeyi ilə "şöhrət qazanan" Bob Menendez kimi... Məlum olur ki, Menendezin Avropa parlamentində də "şərikləri" az deyil.

Avropa Parlamenti və onun üzvləri üçün də bu fakt keçərlidir. Ortada sübutlar və faktlar mövcuddur. Cəmisi aylar öncə Avropa Parlamentinin Yunanıstandan olan vitse-prezidenti Eva Kailinin adının milyonlarla dollarlıq korrupsiya skandalları ilə gündəmə gəlməsi yaddaşlardan silinməyib. Onsuz da irqçi, islamafob, Azərbaycanofob, türkofob mövqeyi və ikili standartları ilə tanınan Avropa Parlamentinin rəsmisinin adının belə çirkin korrupsiya faktlarında hallanması maraqlı nüansları ortaya çıxarır - demək ki, Avroparlamentdə müxtəlif ölkələrlə bağlı qərarların verilməsində ədalət tərəzisinin əyilməsinə, beynəlxalq prinsiplərin arxa plana keçirilməsinə, lobbi maraqlarının önə çəkilməsinə, imperialist güc mərkəzlərinin maraqlarının birtərəfli qaydada təmin edilməsinə dair çoxsaylı faktların olması ilə bağlı informasiyalar həqiqəti əks etdirir. Siyahı tək yunan deputatla da yekunlaşmır- bu ilin fevralında Avropa Parlamentində öz mövqelərini dəstəkləmək müqabilində Qətər və Mərakeşdən rüşvət almaqda şübhəli bilinən Avropa Parlamentinin iki deputatı saxlayıb. Avroparlamentin deputatları Andrea Kozzolino və Mark Tarabella həbs edilərək Brüssel prokurorluğunda dindiriliblər. Hər iki siyasətçi Avropa İttifaqında qərarlara təsir etmək üçün "üçüncü ölkələr"dən müavinət almaqda ittiham olunur.

Beləliklə Avroparlamentin korrupsiya və rüşvət vasitəsilə digər ölkələrə qarşı ədalətsiz qətnamələr qəbul etməsi artıq adi hal alır. Şübhəsiz ki, lobbiçilik müqabilində rüşvətalma faktlarının üzə çıxması Avropa Parlamentinin imicini yerlə bir edib - amma Avroparlament baş verənlərdən nümunə çıxarmaq istəmir. İndi də Azərbaycana qarşı ədalətsiz və qərəzli mövqe tutur...

### Siyasi təsbit - korrupsiya qoxulu "qətnamə"...

Azərbaycana qarşı tutulan qərəzli mövqenin də bir ucunda korrupsiyanın olması istisna deyil. Avropa təsisatlarına yaxından bələd olan siyasət adamları bunu təsdiqləyirlər. Məsələn, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı Asim Mollazadə KİV-ə açıqlamasında bildirmişdi ki, Avropa Parlamentinin Azərbaycana qarşı qətnamə qəbul etməsindən korrupsiya qoxusu gəlir. Onun sözlərinə görə, Avropa Parlamentinin bir sıra üzvləri erməni diasporunun korrupsiyasından istifadə edərək Azərbaycana qarşı qərəzli mövqe formalaşdırır: "Avropa Parlamentinin qətnaməsinin arxasında şübhəsiz ki, korrupsiya dayanır. Avropa Parlamenti daim müxtəlif lobbi qruplarının maraqlarına xidmət edib. Qurum korrupsiya qalmaqalları, dəfələrlə parlament üzvlərinin rüşvət və korrupsiya ittihamları ilə üzləşib. Bilirsiniz ki, Avropa Parlamentinin vitse-spikeri korrupsiyaya görə də həbs edilib. İstisna deyil ki, o ənənələr Avropa Parlamentində hələ də davam etdirilir. Mənə elə gəlir ki, müvafiq hüquq-mühafizə orqanları araşdırmalar aparmalıdırlar və bu siyasi korrupsiyanın qarşısını almalıdırlar".

Deputat Azərbaycana qarşı qəbul edilən qətnaməni qərəzli hesab etdiyini bildirib: "Mən buna başqa qiymət verə bilmərəm. Çünki bu qərəzli qətnamədir. Ondan korrupsiya qoxusu gəlir".



Bu, yalnız azərbaycanlı bir millət vəkilinin qənaəti deyil - bu, Avropa təsisatları ilə yaxından işləyən, illərdir onların "siyasi mətbəxini" görən və bilən peşəkar siyasət adamının qənaətidir. Avroparlamentin müəyyən "pay və ya pul" qarşılığında erməni maraqlarının əsirinə çevrilməsi isə "köhnə qitə"nin demokratik imicinin yerlərdə süründüyünü növbəti dəfə təsdiqləyir. Avroparlamentin bu addımı onların heç də həqiqətin və ədalətin deyil, korrupsiyanın, birtərəfli və qərəzli mövqenin, işğalçının və vandalın yanında olduğunun növbəti sübutudur...

### Türkiyədən etiraz...

Avropa Parlamentinin qərəzli qətnaməsi bəzi ölkələr tərəfindən də açıq kontekstdə etiraza səbəb olub. Türkiyə XİN məsələyə münasibət bildirib. Qardaş ölkənin xarici siyasət idarəsinin bəyanatında göstərilir ki, Avropa Parlamentinin qəbul etdiyi "Azərbaycanın hücumundan sonra Dağlıq Qarabağda vəziyyət və Azərbaycanın Ermənistana qarşı davam edən təhdidləri" adlı məcburi qüvvəyə malik olmayan qətnamə məsuliyyətsizlik, qərəz və məlumatsızlıq nümunəsidir. Populizm, irqçilik, islamafobiya, antimultikulturalizmin və antiinteqrasiyanın getdikcə gücləndiyi Avropa siyasəti indiki tərkibi ilə AP-də bütün ifratları ilə özünü ifşa edir. Aİ-nin gələcəyi üçün arzumuz ondan ibarətdir ki, səlahiyyət müddəti tezliklə başa çatacaq hazırkı AP-nin Aİ-nin fundamental dəyərlərinə sadiq olan konstruktiv, hərtərəfli və həssas nümayəndələrdən ibarət yeni tərkibdə olmasıdır".

Həmçinin əlavə olunub ki, Türkiyə Cənubi Qafqazda daimi sülh, sabitlik və rifahın bərqərar olması, Ermənistanla normallaşma prosesini həyata keçirmək, bu ölkə ilə Azərbaycan arasında sülh prosesinə konkret töhfə vermək, beynəlxalq hüquq normaları çərçivəsində sülhün təmin olunması üçün intensiv səylər göstərir.

"Ölkəmiz Ukrayna müharibəsi də daxil olmaqla, bütün münaqişə və humanitar böhranların yaşandığı sahələrdə qardaşlıq və ümumi maraqların bərqərar olması üçün bütün imkanlarını səfərbər edir və möhtərəm Prezidentimizi bu istiqamətdə çəkisi və səylərindən istifadə olunan fundamental aktordur. Heç kimin nəzərə almadığı, lakin marjinal seqmentlərin diqqətini çəkəcək bu cür məsuliyyətsiz mətnlərin bizə AP qərarı kimi təqdim edilməsini sistem zəifliyi kimi görür və ciddi qəbul etmirik", - deyə bəyanatda vurğulanıb.

*P.İSMAYILOV*

# Ermənistanın mina terroru davam edir

Oktyabrın 5-də saat 17 radələrində işğaldan azad edilən ərazidə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu xidmət vaxtı piyada əleyhinə minaya düşüb. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, 1999-cu il təvəllüdlü S. Adıgözəlov minaya düşməsi nəticəsində ayağından xəsarət alıb. O, dərhal xəstəxanaya çatdırılıb. Hadisə ilə bağlı araşdırma aparılır.

Ümumiyyətlə, Azərbaycan dünyada mina ilə çirkləndirilən əsas ölkələrdən biridir. Ermənistan 30 illik işğal dövründə çoxlu sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Azərbaycan ərazilərində kütləvi şəkildə minalar və digər partlayıcı qurğuların yerləşdirilməsi bərpa və yenidənqurma işlərinin əngəlsiz şəkildə irəliləməsi üçün ciddi maneə olaraq qalır. Bu, otuz illik məcburi köçkünlükdən sonra öz evlərinə qayıdan şəxslər üçün təhlükə yaradır.

Ermənistanın bütün minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina etməsi və bütün hərbi əməliyyatların dayandırıldı]ğının elan edilməsindən sonra da minaların, mina tələlərinin və digər partlayıcı maddələrin davamlı yerləşdirilməsi vəziyyəti daha da ağırlaşdırıb və insan tələfatının sayını artırıb. Erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi İrəvan hələ də dəqiq mina xəritələrini vermək istəmir.

Xatırladaq ki, sentyabrın 19-da erməni diversiya qrupunun Füzuli-Əhmədbəyli-Şuşa yolunda yerləşdirdiyi minaların partlaması nəticəsində 2 mülki yol inşaatçısı faciəvi şəkildə həlak oldu. 4 polis əməkdaşı isə həmin hadisənin baş verdiyi əraziyə baxış keçirməyə cəhd edərkən eyni bölgəyə yaxın yerdə quraşdırılmış növbəti minanın partlamasının qurbanı oldular. Eyni zamanda, bu partlayışlar Azərbaycanın daha 6 polisinin ağır yaralanmasına səbəb oldu.

Qeyd edilməlidir ki, 2020-ci il üçtərəfli Bəyanatından sonra Azərbaycanda 2022-ci ilin avqust ayından indiyədək 2021-ci ildə Ermənistanda istehsal edilmiş, ümumilikdə 2,728 mina aşkarlanaraq zərərsizləşdirilib. Belə ki, Azərbaycan-Ermənistan sərhədi boyunca Kəlbəcər və Laçın rayonlarında 1119 mina, Qarabağ iqtisadi rayonunda isə 1609 mina aşkarlanaraq zərərsizləşdirilib. Ümumilikdə 2020-ci ilin noyabr ayında üçtərəfli Bəyanatın imzalanmasından bugünədək 320-dən çox insan minaların qurbanı olub.

Azərbaycanda davam edən mina problemini və dövlət qurumlarının bu problemi həll etmək istiqamətində üzləşdikləri çətinlikləri nəzərə alaraq, minatəmizləmə sahəsində Azərbaycanın potensialının gücləndirilməsi üçün beynəlxalq dəstəyin artırılmasına ciddi ehtiyac var. Bu cür dəstək minatəmizləmə səylərinə kömək etməklə yanaşı, o cümlədən minalarla mübarizə istiqamətində qlobal kampaniyaya töhfə verəcək və regionda sülh və əməkdaşlığa sadiqliyi nümayiş etdirəcək.

Digər tərəfdən, Dövlət Təhlükəsizliyi Xidmətinin sentyabrın 19-da Əhmədbəyli-Füzuli-Şuşa yolunun 58-ci kilometrliyində və Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minalar yerləşdirərək iki mülki şəxsin və dörd polis nəfərinin həlak olması ilə nəticələnən terror əməllərini törətməkdə şübhəli bilinən şəxslərin saxlanılması haqda açıqladığı məlumat bir daha təsdiqləyir ki, cinayətkarlar cəzasız qalmır. Yəni, Azərbaycan bütün müstəvilərdə ədalətin bərpası uğrunda mübarizə aparır və buna nail olur.

*Nardar BAYRAMLI*

# Milli Məclisin plenar iclasında...
# Avropa Parlamentinə cavab bəyanatı qəbul edilib
# Sanksiya istəyinin əmsalı sıfıra bərabərdir



Oktyabrın 6-da Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən toplantının gündəliyinə 18 məsələnin müzakirəsi daxil edilib.

Əvvəlcə Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar deputatlar Səməd Seyidov, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Elman Nəsirov, Jalə Əliyeva, Azay Quliyev, Bəhruz Məhərrəmov, Vahid Əhmədov, Kamilə Əliyeva, Fəzail İbrahimli, Sahib Alıyev, Tahir Rzayev, Rasim Musabəyov, Zahid Oruc çıxış ediblər.

Bildirilib ki, Avropa Parlamentinin qərəzli qətnaməsi qorxaqlıq, gücsüzlük, islamofob qətnamədir. Qeyd edilib ki, Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə müdaxilə etmək imkanları əlindən alınıb. Bu qətnamə həmin qüvvələrin gücsüzlüyünü, qorxaqlığını göstərən qətnamədir. Heç bir qətnamə Azərbaycana təsir edə bilməz.

Sonra Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Milli Məclisinin Bəyanatı qəbul edilib. Bəyanatı Deputat Tural Gəncəliyev təqdim edib.

Bəyanatda deyilir:

"Azərbaycan Respublikasının Milli Məclisi 2023-cü il oktyabrın 5-də Avropa Parlamentinin qərəzli və obyektivlikdən uzaq qətnamə qəbul etməsinə qəti etirazını bildirir və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayır. Xatırladırıq ki, Azərbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur. Yaxşı olar ki, Avropa Parlamenti Avropada tüğyan edən islamofobiya, antisemitizm, miqrantların hüquqlarının kütləvi və kobud surətdə pozulması və digər bu kimi köklü problemlərlə məşğul olsun.

Sözügedən qətnamə Fransa hökumətinin təhriki ilə əksəriyyəti bu ölkədən olan anti-Azərbaycan, islamofob deputatların saxta məlumatları əsasında hazırlanmışdır. Avropa Parlamentinin bu addımı onun ikili standartlara əsaslandığının növbəti bariz nümunəsi olub, məsələlərə selektiv yanaşdığını sübut edir. Beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisinin 20 faizinin 30 ilə yaxın davam edən işğalının doğurduğu ağrı-acıya, etnik təmizləməyə, Xocalı soyqırımına, 1 milyondan artıq qaçqın və məcburi köçkünün taleyinə, şəhər və kəndlərin yerlə-yeksan edilməsinə, tarixi, mədəni və dini irsin dağıdılmasına etinasızlıq göstərən Avropa Parlamentinin Azərbaycan ərazisində qalmaqda davam edən Ermənistan Respublikası silahlı qüvvələrinin birləşmələrinə və qanunsuz erməni dəstələrinə qarşı həyata keçirilmiş anti-terror tədbirlərindən sonra Ermənistan Respublikası tərəfindən yaradılmış qondarma qurumun müdafiəsinə yönələn belə bir qətnaməni qəbul etməsi separatizmə açıq dəstək verməkdir.

Qətnamənin əsas təşəbbüskarı olan Fransa son illər Cənubi Qafqaz bölgəsində sülh və təhlükəsizliyin təmin edilməsi yolunda başlıca maneəyə çevrilmişdir. Dünyanın müxtəlif regionlarında iflasa uğrayan Fransa Cənubi Qafqaz bölgəsini yeni təhlükələrə sürükləyərək qeyri-sabit zonaya çevirməyə çalışır. Fransanın Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, özünün mənfur yeni müstəmləkəçilik təcrübəsini Cənubi Qafqaz bölgəsində tətbiq etməyə çalışması, xristianlıq amilini qabartması və keçmiş münaqişəyə dini təəssübkeşlik mövqeyindən yanaşması onun səlibçi siyasətinin təzahürüdür.

Qondarma "Dağlıq Qarabağ Respublikası" özünü buraxdığını elan etdikdən sonra Avropa Parlamentinin onu müdafiə etməsi siyasi riyakarlıqdan xəbər verir və bölgədə vəziyyətin yenidən gərginləşməsinə xidmət edir. Avropa Parlamenti Azərbaycan torpaqlarının işğalı dövründə bu qondarma quruma dəstək verməklə işğalın uzun illər davam etməsi, on minlərlə azərbaycanlının qətlə yetirilməsi üçün məsuliyyət daşıyır.

Məhz bu cür qərəzli və obyektivlikdən uzaq fəaliyyəti ilə Avropa Parlamenti öz nüfuzuna sarsıdıcı zərbə endirir, erməni lobbisinin və onu dəstəkləyən qüvvələrin əlində oyuncağa çevrildiyini göstərir. Avropa Parlamentinin anti-Azərbaycan və islamofob siyasətinin nəticəsidir ki, Avropa Parlamenti ilə Azərbaycanın münasibətləri aşağı səviyyədədir. Avropa Parlamentində təmsil olunan bir sıra deputatlar Avropa seçicilərinin deyil, lobbi qruplarının maraqlarını təmsil edir. Belə davranış həm də şovinizmin, ifrat sağ düşüncənin təzahürüdür. Bu yanlış siyasəti ilə Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz siyasətini təhlükə altına atır.

Qətnamədə irəli sürülən iddialardan fərqli olaraq, Azərbaycan hökuməti Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etməsinə imkan yaradılması məqsədi ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində kompleks tədbirlər həyata keçirir.

BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların səsləndirdiyi bəyanatlara tamamilə zidd olaraq, Avropa Parlamentinin bölgədən könüllü getmiş erməni sakinlərin ərazidən zorla köçkün düşdüyünü iddia etməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin rəhbərliyini korrupsiyaya qurşanmış destruktiv və qərəzli qüvvələri dayandırmağa, Cənubi Qafqaz bölgəsində yaranmış yeni reallıqları əks etdirən obyektiv sənədlər qəbul etməklə bölgədə sülh və sabitlik yaradılması səylərinə dəstək göstərməyə çağırır".

**Serbiya Milli Assambleyasının sədri Milli Məclisdə**

Sonra Azərbaycanda rəsmi səfərdə olan Serbiya Milli Assambleyasının sədri Vladimir Orliç Milli Məclisin plenar iclasını izləyib.

Daha sonra "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Mədəniyyət haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi, Azərbaycanın 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında qanun layihəsi, "Qiymətləndirmə fəaliyyəti haqqında" qanun layihəsi (birinci oxunuş), "Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Dövlət qulluğu haqqında" qanunda və Azərbaycanın 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Ovçuluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Sosial xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) səsverməyə çıxarılaraq qəbul edilib.

Ardınca "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş), "Poçt haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) səsvermə əsasında təsdiqlənib.

Beləliklə, Milli Məclisin payız sessiyasının növbəti plenar iclası yekunlaşıb.

*Günel ABBAS*

# Valdayda Cənubi Qafqaz müzakirəsi...
## Rusiya Prezidentindən Qarabağ etirafı




Valday Beynəlxalq Diskussiya Klubunun son toplantısı bir sıra məsələlər xüsusilə, Ermənistan-Azərbaycan məsələsi ilə bağlı mühüm açıqlamalarla yadda qalıb. Xatırladaq ki, 2014-cü ildən formatını dəyişən klubda qlobal intellektual gündəmin ən aktual mövzuları ilə bağlı məsələlər dəyələndirilir. Klub hər il regional konfranslar keçirir.

Bu dəfə də ənənəvi formatına sadiq qalan Valday Diskussiya Klubunda müzakirə predmeti olan Cənubi Qafqazda baş verən yeniliklərə diqqət çəkilib. Rusiya Prezidenti eyni zamanda Qarabağ və orada baş verən proseslər haqda fikirlərini bölüşüb.

**Qarabağ rəsmən Azərbaycanındır...**

Maraqlıdır ki, Rusiya Prezidenti Qarabağda baş verən son dəyişikliklərin Ermənistanın indiki rəhbərliyinin, məhz Paşinyanın günahının olmasını iddia edib və bunu Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə əlaqələndirib. "Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb", - deyən Putin məsələnin bununla bitdiyini qeyd edib: "Ermənistan Qarabağın statusu məsələsini həll edib. Qarabağ rəsmi olaraq Azərbaycanın tərkibinə keçib".

Vurğulanmalıdır ki, Qarabağın Azərbaycan torpağı olmasının əksini heç bir dövlət, o cümlədən də, Ermənistan iddia edə bilməz. Ortada beynəlxalq müqavilələr, ölkənin sərhədləri ilə bağlı beynəlxalq sənədlər mövcuddur - ölkəmiz hər zaman Qarabağın Azərbaycan torpağı olması fikrini ifadə edib və bu faktı beynəlxalq aləmin diqqətinə çatdırıb. Azərbaycan qondarma rejimə və ya digər qondarma fikirlərə ciddi yanaşmayıb, "status"la bağlı hər hansı bir məsələni müzakirə etməyib - tam əksinə, daima Qarabağın Azərbaycan torpağı olduğunu faktlarla sübut edib. Rusiya Prezidentinin fikirləri də bunu bir daha təsdiqləyir. Putinin "Qarabağ Azərbaycan torpağıdır" fikri geosiyasi münasibətlərin hazırkı durumunun ən real qiymətləndirilmələrindəndir.

**İnək "inildəyirsə"...**

Rusiya Prezidenti həm də "Rusiya Ermənistana xəyanət etdi" kimi ittihamları cavablandırıb. O bu kimi iddialara ironiya ilə reaksiya verib. Rusiya lideri deyib: "Bizim xalq arasında belə bir deyim var: kimin inəyi inildəsə də, səninki susmalıdır".

"İnək" sözü əvəzinə yanlışlıqla "madyan" deyən Putinin sözünə jurnalist düzəliş etsə də, o, "fərqi yoxdur, ikisi də heyvandır" deyə bildirib.

Əslində bu kimi fikirlərlə Rusiya Prezidenti bəzi dairələrə də mesaj göndərib - Cənubi Qafqazda yaranan yeni reallıqlara müdaxilə "istəkləri" boşunadır. Rusiya da bu məsələyə müdaxilə etmək fikrində deyil və olmayıb. Başqa sözlə, Azərbaycanın konstitusion hüquqlarından istifadə etməsi, suverenliyini bərpa etməsi faktı heç kimi "incitməməlidir"...

**Hüquq və təhlükəsizlik...**

Putin Qarabağın erməni sakinlərinin hüququ məsələsinə də toxunub. O bildirib ki, əvvəllər Azərbaycan Prezidenti İlham Əliyevlə danışanda İlham Əliyev Rusiya Prezidentini Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyinin təmin olunması barədə əmin edib. Putin daha sonra bildirib ki, Qarabağda indi erməni qalmayıb, hamısı gedib, ola bilsin ki, 1000-1500 nəfər qalıb, hamısı gedib, heç kim yoxdur.

Ermənilərin Qarabağdan Ermənistana köçmək arzusu onların öz seçimidir - Azərbaycan heç kimi buna məcbur etməyib. Ortada olan reinteqrasiya proqramı isə xüsusi mükəmməlliyi ilə seçilir. Bu mənada, Azərbaycanı nələrdəsə günahlandırmaq özü birmənalı şəkildə beynəlxalq hüququ pozmaq deməkdir. BMT missiyasının yekun bəyanatında ermənilərin Azərbaycan torpaqlarını öz arzuları ilə tərk etməsi faktı açıq şəkildə öz əksini tapır - belə olan təqdirdə, kimlərinsə bu məsələdən spekulyativ vasitə kimi istifadəsi yolverilməzdir.

**Xunta üzvlərinin həbsi...**

V.Putin Azərbaycan qanunlarını pozduqları üçün müvafiq cinayətlərdə şübhəli bilinən və saxlanılan qondarma rejim üzvlərinin həbsinə də münasibət bildirib. O qeyd edib ki, Qarabağın keçmiş "liderlərini" Ermənistanda da görmək istəmirlər. Putin rəsmi Bakının Qarabağın keçmiş "liderləri"nə münasibətdə humanitar mülahizələrə əsaslanacağına ümid etdiyini bildirib. Xatırladaq ki, daha əvvəl Ruben Vardanyanın həbsi ilə bağlı vəziyyəti şərh edən Rusiya lideri onun özünün könüllü olaraq Rusiya vətəndaşlığından imtina etdiyini vurğulamışdı.

*SADİQ*

# Yeni situasiya formalaşıb
## Sülhməramlıların fəaliyyəti...

Qarabağda baş tutan 24 saatlıq antiterror tədbirlərindən sonra ən aktual mövzulardan biri üçtərəfli razılaşmaya əsasən Azərbaycanın Qarabağ bölgəsində yerləşdirilən Rusiyanın sülhməramlı kontingentinin gələcəyi ilə bağlıdır. Qeyd edək ki, hətta Rusiyanın və Ermənistanın bəzi siyasətçiləri artıq sülhməramlıların Qarabağda qalmasını mənasız sayır.

Bu məsələyə Rusiya Prezidenti Vladimir Putin də münasibət bildirib. Valday Beynəlxalq Diskussiya Klubunun plenar iclasında çıxış edən V.Putin Qarabağdakı sülhməramlıların statusundan danışıb: "Rusiya sülhməramlılarının hüquqi statusu istisnasız olaraq 9 noyabr üçtərəfli Bəyanatına əsaslanır. Sülhməramlıların heç bir statusu müəyyən edilmədi. İndi niyə belə olduğunu deməyəcəm. Azərbaycan hesab edirdi ki, buna gərək yoxdur. Ona görə də, bunu Azərbaycansız imzalamaq mənasız idi. Ona görə də sülhməramlıların bütün statusu istisnasız olaraq 2020-ci il bəyanatına əsaslanırdı. Sülhməramlıların hüquqları isə ancaq atəşkəsi rejimini müşahidə etmək və riayət etməkdən ibarət idi. Orada sülhməramlılarımızın başqa heç bir hüququ yox idi. Ancaq atəşkəs rejiminə riayət etmək və müşahidə etmək, bu qədər..."

## Ermənistan təsdiqlədi...

Putin 2022-ci ilin payızında baş tutan Praqa görüşünə də toxunub. O bildirib ki, Praqada imzalanan bəyanatda Ermənistanın Qarabağı Azərbaycan Respublikasının ərazisi kimi tanıdığı qeyd olunurdu: "Bundan əlavə, Ermənistan rəhbərliyi Azərbaycan ərazisini kvadrat kilometrlərlə qeyd etmişdilər, hansı ki, ora sözsüz ki, Qarabağ da daxil idi. Qeyd etmişdilər ki, onlar Azərbaycanın Azərbaycan SSR-in ərazisi çərçivəsində suverenliyini tanıyırlar. Məlum olduğu kimi Azərbaycan SSR-in tərkibinə Qarabağ da daxil idi. Faktiki olaraq başlıca, tamamilə əsas məsələ həll olunmuşdu, hansı ki, bura Qarabağın statusu da daxil idi. Qarabağ öz müstəqilliyini elan edən zaman, heç kəs onun müstəqilliyini tanımamışdı, hətta Ermənistan da... Düzünü desəm, bu mənə qəribə gəlir. Lakin qərar belə olmuşdu, onlar Qarabağın müstəqilliyini tanımamışdılar. Lakin Praqada onlar tanıdılar ki, Qarabağ Azərbaycana məxsusdur. Sonra isə 2023-cü ilin əvvəlində Brüsseldə analoji görüşdə bunu təkrar bəyan etdilər. Bizə bu barədə heç kim deməmişdi. Mən şəxsən bunu mətbuatdan öyrəndim".



Putin vurğulayıb ki, Azərbaycan hər zaman Qarabağı

## Paşinyan ortadan çəkildi - sülhməramlı məsələsi...

öz ərazisi hesab edib. Lakin Ermənistan Qarabağın Azərbaycan ərazisi kimi statusunu müəyyən edib. "Bundan sonra Azərbaycan Prezidenti görüşlərin birində mənə dedi ki, "görürsüz hamı qəbul edib ki, Qarabağ bizimdir. Sizin sülhməramlılarınız bizim ərazimizdədir". Bilirsiz, Qarabağın Azərbaycan ərazisi kimi statusu müəyyən ediləndən sonra sülhməramlılarımızın statusu keyfiyyətdə dəyişikliyə uğradı. Azərbaycan Prezidenti dedi ki, sizin sülhməramlılar bizim ərazimizdə yerləşir. Gəlin indi onların statusu ilə bağlı ikitərəfli əsasda danışaq. Ermənistan baş naziri Paşinyan da bunu təsdiq etdi, bəli, siz indi ikitərəfli əsasda razılaşmalısız. Yəni ki, Qarabağ getdi... İndi bu status haqqında nə istəsən demək olar. Bu, əsas məsələ idi, ötən on illiklər ətrafında hər şey onun (statusun-red) ətrafında fırlanırdı. Bitdi. Ermənistan onu həll etdi. Qarabağ rəsmən Azərbaycanın tərkibinə keçdi. Müasir Ermənistan dövlətinin mövqeyi belə oldu. Biz nə edə bilərik ki?", - deyə Putin əlavə edib.

Qeyd edək ki, bu nüans əvvəllər də Rusiya rəsmilərinin dilindən səslənmişdi. Amma indiki halda dövlət başçısının bu fikirləri söyləməsi fərqli anlam daşıyır. Bu o deməkdir ki, Azərbaycanın səyi və qətiyyəti regiondakı bəzi reallıqlar kimi sülhməramlı məsələsində də mühüm dəyişikliklərə yol açıb.

## Müvəqqəti müşahidə məntəqələri söküldü...

Beləliklə, sülhməramlıların fəaliyyət istiqamətlərində müəyyən dəyişikliklərin olacağını proqnozlaşdırmaq olar. Yeri gəlmişkən, oktyabrın 5-də Rusiyanın Müdafiə Nazirliyinin rəsmi saytında yer alan informasiyada göstərilib ki, Əsgəran, Ağdərə və Şuşa rayonlarında tərəflərin keçmiş təmas xətti boyunca müvəqqəti müşahidə məntəqələrinin sökülməsi başa çatıb.

Bu fakt onu göstərir ki, artıq sülhməramlıların fəaliyyət mexanizmləri, fəaliyyət istiqamətləri dəyişir. Bununla bağlı növbəti mərhələdə nələrin baş verəcəyini isə fərqli istiqamətlərə yozanlar var - bəzi siyasətçilər bunu Rusiyanın sülhməramlı qüvvələrini bölgədən çəkəcəyi ilə əlaqələndirir. Onlar iddia edirlər ki, artıq qondarma rejim çökdüyü və Azərbaycanın da açıq reinteqrasiya proqramı bəyan etməsi fonunda sülhməramlıların regionda qalmasına ehtiyac duyulmur...

*SADİQ*

# YAP Sədrinin müavini ilə AK Parti Sədrinin birinci müavini arasında görüş keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyə Respublikasında səfərdədir.

Səfər çərçivəsində oktyabrın 6-da Ankarada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala arasında görüş keçirilib.

Qonaqları salamlayan AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin sarsılmaz və bütün dünyaya nümunə olduğunu diqqətə çatdırıb. O, iki ölkənin bütün taleyüklü məqamlarda qardaşlıq və həmrəylik örnəyi ortaya qoyduğunu vurğulayıb. Efkan Ala qeyd edib ki, Azərbaycan ilə Türkiyə bütün sahələri əhatə edən çoxşaxəli əməkdaşlığı dərinləşdirmək iradəsi nümayiş etdirir və əlaqələrin yüksələn xətt üzrə inkişafı böyük məmnunluq doğurur.

44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlardan bəhs edən Efkan Ala Azərbaycanın lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyini bərpa etməsini tarixi hadisə kimi dəyərləndirib. O, Azərbaycan ilə Türkiyənin təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyini bildirib.

Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin səfərinin əhəmiyyətindən bəhs edən Efkan Ala dövlət başçılarımızın siyasi iradələrinə uyğun olaraq iki hakim partiya arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımların atıldığını, bu kontekstdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin mühüm önəm daşıdığını diqqətə çatdırıb. O, YAP ilə AK Parti arasındakı işbirliyinin gücləndirilməsinin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına mühüm töhfə olduğunu söyləyib.

AK Parti Sədrinin birinci müavini həm dövlətlərimizin, həm də iqtidar partiyalarının daim birgə hərəkət edərək ortaq hədəfləri reallaşdıracaqlarına və mühüm nailiyyətlər qazanacaqlarına əminliyini ifadə edib.

Dəvətə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə IV Böyük Fövqəladə Qurultayını keçirən AK Partiyə nümayəndə heyəti adından uğurlar arzulayıb, qurultayın nəticələrinin həm Ədalət və İnkişaf Partiyası, həm də bütövlükdə Türkiyə Respublikası üçün faydalı olacağına inamını ifadə edib.

YAP Sədrinin müavini tarixi köklərə və ortaq dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin hər iki ölkənin liderlərinin məqsədyönlü siyasəti nəticəsində strateji müttəfiqlik zirvəsinə yüksəldiyini, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə mənəvi-siyasi cəhətdən yaxın ikinci ölkənin olmadığını diqqətə çatdırıb.

Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq ərazi bütövlüyünü və tarixi ədaləti təmin etməsində Türkiyənin mənəvi-siyasi dəstəyinin əhəmiyyətindən bəhs edən Tahir Budaqov yeni geosiyasi reallıqların regional təhlükəsizlik və işbirliyi üçün mühüm imkanlar yaratdığını bildirib. YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycanın lokal xarakterli antiterror tədbirləri həyata keçirərək konstitusiya quruluşunu bərpa etdiyini və regionda sülhün, təhlükəsizliyin təmin olunması istiqamətində prinsipial mövqe sərgilədiyini bildirib.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında iki ölkənin hakim partiyaları olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının daimi təmaslarının, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin mühüm rolu olduğunu bildirən Tahir Budaqov partiyalarımız arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu söyləyib. YAP Sədrinin müavini qeyd edib ki, 2021-ci ildə iki partiya arasında Əməkdaşlıq Protokolunun imzalanmasından sonra işbirliyinin dərinləşdirilməsinə xidmət edən mühüm addımlar atılıb. Xüsusilə də, qarşılıqlı səfərlər və hər iki partiyanın birgə təşkilatçılığı ilə keçirilən müxtəlif tədbirlər münasibətlərə dinamizm gətirib.

Daha sonra qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.





# YAP Sədrinin müavini AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini ilə görüşüb





Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin qardaş Türkiyə Respublikasına səfəri çərçivəsində oktyabrın 6-da Ankarada Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya ilə görüşü keçirilib.

Nümayəndə heyetini salamlayaraq "Vətəninizə xoş gəlibsiniz" deyən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya YAP nümayəndə heyətinin səfərinin Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi olduğunu söyləyib. O, iki hakim partiya arasında əlaqələrin inkişafının dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi xüsusi diqqət mərkəzində olduğunu söyləyib. Z.Sırakaya AK Partinin Yeni Azərbaycan Partiyası ilə işbirliyinə böyük önəm verdiyini və qarşılıqlı səfərlərin bu baxımdan faydalı olduğunu diqqətə çatdırıb.

Türkiyə ilə Azərbaycanı ortaq tarixi keçmiş və milli-mənəvi dəyərlərin birləşdirdiyini söyləyən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini ölkələrimiz arasındakı münasibətlərin dünyada bənzəri olmadığını qeyd edib. O, Azərbaycanın möhtəşəm Qələbəsindən sonra regionda yeni reallıqların yarandığını, bu tarixi mərhələnin ölkələrimiz və partiyalarımız üçün yeni vəzifələr müəyyənləşdirdiyini bildirib. "Hazırkı gerçəkliklər və aktual çağırışlar Azərbaycan ilə Türkiyənin hakim partiyaları arasında təmasların gücləndirilməsini, əməkdaşlığın genişləndirilməsini zəruri edir" ,- deyən Z.Sırakaya istər dövlətlərimizin, istərsə də iqtidar partiyalarının birgə mühüm nailiyyətlərə imza atacaqlarına əminliyini ifadə edib.

AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini təyin edilməsi münasibətilə Zafer Sırakayaya bir daha təbriklərini çatdıran və fəaliyyətində uğurlar arzulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dərin köklərə malik, dostluq, qardaşlıq və strateji müttəfiqlik zirvəsində olan Azərbaycan-Türkiyə münasibətlərinin bir çox sınaqlardan uğurla çıxdığını və nümunəvi xarakter daşıdığını söyləyib. O, xalqlarımız və dövlətlərimiz arasındakı əlaqələrin 44 günlük Vətən müharibəsindən sonra keyfiyyətcə yeni mərhələyə yüksəldiyini, Türkiyənin Azərbaycana haqq işində göstərdiyi mənəvi-siyasi dəstəyin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini və heç zaman unudulmayacağını vurğulayıb. Postkonflikt dövründə Azərbaycan ilə Türkiyənin milli maraqlara və beynəlxalq hüquq normalarına uyğun müştərək fəaliyyətinin regionda yeni geosiyasi nizam yaratdığını vurğulayan Tahir Budaqov "Bu əməkdaşlıq istər bölgədə sülh və təhlükəsizliyin təmin olunması, istərsə də işğaldan azad edilmiş ərazilərin yenidən qurulması baxımından son dərəcə önəmlidir" ,- deyə bildirib.

YAP Sədrinin müavini Azərbaycan ilə Türkiyənin siyasi gündəliyində iqtidar partiyaları arasında əməkdaşlığın dərinləşdirilməsinin mühüm yer tutduğunu diqqətə çatdırıb. O, 2021-ci ildə YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək ikitərəfli münasibətlərin inkişafına xidmət edən məqsədyönlü fəaliyyəti qeyd edib. YAP Mərkəzi Aparatının rəhbəri dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına xidmət edən qarşılıqlı səfərlərin davamlı xarakter daşıdığını və sinxron fəaliyyət nəticəsində diqqətəlayiq uğurların qazanıldığını vurğulayıb, hər iki ölkənin mənafeyinə xidmət edən əməkdaşlığın bundan sonra daha da məhsuldar olacağına əminliyini ifadə edib.

Tahir Budaqov Ədalət və İnkişaf Partiyasının oktyabrın 7-də baş tutacaq IV Fövqəladə Böyük Qurultayının uğurlu olacağına əminliyini ifadə edərək rəhbərlik etdiyi nümayəndə heyəti adından AK Partiyə müvəffəqiyyətlər arzulayıb.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.









# YAP Sədrinin müavini ilə TBMM Sədri arasında görüş keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyə Respublikasında səfərdədir.

Səfər çərçivəsində oktyabrın 6-da Ankarada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri, İstanbul millət vəkili Numan Kurtulmuş arasında görüş keçirilib.

YAP nümayəndə heyətini ölkəsində salamlamaqdan məmnunluğunu ifadə edən TBMM-in Sədri, İstanbul millət vəkili Numan Kurtulmuş Azərbaycan-Türkiyə münasibətlərinin bənzərsiz dostluq və qardaşlıq örnəyi kimi istər ikitərəfli münasibətlərin inkişafı, istərsə də regional əməkdaşlıq və təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Parlament sədri Azərbaycan ilə Türkiyənin bir-birinin milli maraqları və dövlətçilik mənafelərini beynəlxalq arenada layiqincə müdafiə etdiklərini vurğulayıb. “Bu gün qürur hissi və minnətdarlıqla qeyd edirik ki, Azərbaycan növbəti yüzillikdə yeni hədəflərinə əmin addımlarla irəliləyən Türkiyəyə öz qardaş dəstəyini göstərir. Türkiyə də öz növbəsində Azərbaycanın yanında olduğunu, xüsusilə də onun haqlı və ədalətli mövqeyini dəstəklədiyini qətiyyətlə ifadə edir” ,- deyən N.Kurtulmuş Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin bütövlükdə Türk dünyası üçün müstəsna əhəmiyyətə malik olduğunu bildirib.

TBMM-in Sədri iki ölkə arasında parlamentlərarası əməkdaşlığın önəmindən də söz açıb. O, qardaş ölkələrin qanunverici orqanlarında Azərbaycan-Türkiyə dostluq qruplarının fəaliyyətinin, eyni zamanda, qarşılıqlı səfərlərin münasibətlərin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb. O bu kontekstdə qarşılıqlı fikir mübadiləsinin aparılmasının və əməkdaşlığın dərinləşdirilməsinə xidmət edən addımların atılmasının ortaq hədəflərin gerçəkləşdirilməsinə zəmin yaratdığını bildirib.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinə göstərilən yüksək diqqətə görə minnətdarlığını ifadə edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov TBMM-in sədri seçilməsi münasibətilə Numan Kurtulmuşa bir daha təbriklərini çatdırıb və ona fəaliyyətində uğurlar arzulayıb.

YAP Sədrinin müavini Azərbaycan ilə Türkiyənin “bir millət, iki dövlət” fəlsəfəsi əsasında ortaq dəyərlərə, milli maraqlara və ümumi hədəflərə uyğun uğurla fəaliyyət göstərərək strateji müttəfiqlik münasibətlərini dərinləşdirdiklərini diqqətə çatdırıb. O qeyd edib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri ilk növbədə hər iki ölkənin liderləri - cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın iradəsi və səyləri sayəsində inkişaf edir: “Biz unikal dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətləri qurmağa müvəffəq olmuşuq. Bütün sahələrdə çoxşaxəli əlaqələrin genişləndirilməsi, işbirliyinin daha da gücləndirilməsi üçün ardıcıl, məqsədyönlü addımlar atılır. Xüsusilə də, 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin uğurla icra olunması həm Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin inkişafı, həm də regionda dayanıqlı sülh, davamlı sabitlik və təhlükəsizlik, etibarlı əməkdaşlıq mühitinin formalaşdırılması baxımından böyük əhəmiyyətə malikdir”.

Tahir Budaqov 44 günlük Vətən müharibəsinin Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq münasibətlərinin sarsılmazlığını bir daha sübut etdiyini xüsusi olaraq diqqətə çatdırıb. YAP Sədrinin müavini ikili standartlara, qərəzli və qeyri-obyektiv münasibətə baxmayaraq, Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində Azərbaycanın haqq işini qələbə ilə yekunlaşdırdığını, əzəli və əbədi torpağı olan Qarabağda lokal antiterror tədbirləri həyata keçirərək suverenliyini tam bərpa edən ölkəmizin haqlı və ədalətli mövqeyinin qardaş Türkiyə tərəfindən qətiyyətlə müdafiə olunmasının böyük mənəvi-siyasi önəm daşıdığını bildirib. Tahir Budaqov postmüharibə dövründə ölkələrimizin təşəbbüslərinin inkişafa xidmət göstərdiyini, Türkiyə şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizin bərpasında yaxından iştirak etməsinin daha bir qardaşlıq və dostluq nümunəsi kimi təqdirəlayiq olduğunu nəzərə çatdırıb.

YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycan-Türkiyə əməkdaşlığının genişləndirilməsində həm parlamentlər, həm də hakim partiyalar arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını bildirib. Siyasi partiyaların dövlətlərarası münasibətlərin inkişafında önəmli yerə malik olduğunu söyləyən Tahir Budaqov Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasındakı əməkdaşlığın məmnunluq doğurduğunu qeyd edib.



Daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Görüşdə Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım və AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya da iştirak ediblər.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# “Təhsilli qadın: təhsilli ailə, təhsilli cəmiyyət” mövzusunda tədbir keçirilib

Oktyabrın 6-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Təhsilli qadın: təhsilli ailə, təhsilli cəmiyyət” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Yasamal rayonunda yerləşən Şəhidlər Xatirə Kompleksinin və Ulu Öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülüb.

YAP Yasamal rayon təşkilatında keçirilən tədbirdə əvvəlcə Dövlət Himni səsləndilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə giriş sözü ilə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, təhsilli qadınların cəmiyyət həyatında rolu müstəsna əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərliyə gəldikdən sonra Azərbaycanda cəmiyyətin inkişafında qadınların rolu artmağa başlayıb. Müstəqil Azərbaycan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək və konvensiyalara qoşulmaqla yanaşı, ölkə daxilində də qadınların hüquq və azadlıqlarının qorunması istiqamətində bir çox normativ-hüquqi aktlar qəbul edib.



YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva isə qeyd edib ki, bu gün Azərbaycan özünün yüksək inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmayıb. Bu da Heydər Əliyev siyasətinin təntənəsidir. Onun sözlərinə görə, ölkəmizin inkişafında qadınlar böyük rol oynayırlar. Bu il Azərbaycanda “Heydər Əliyev İli”nin qeyd olunduğunu xatırladan Z.Musayeva deyib ki, Ulu Öndərimizin anadan olmasının 100-cü ildönümü xalqımız üçün əlamətdar hadisələrlə zəngindir.

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva bildirib ki, Ulu Öndər Heydər Əliyevin 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə kompleks həlli zərurəti vahid dövlət idarəetmə orqanının təşkilini şərtləndirib. Bununla əlaqədar olaraq Azərbaycan Prezidenti İlham Əliyevin 6 fevral 2006-cı il fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirir. A.Sofiyevanın sözlərinə görə, Dövlət Komitəsi Elm və Təhsil Nazirliyi ilə qızların təhsilinə dəstək məqsədilə birgə layihələr həyata keçirir. Uğurlarla yanaşı bəzi problemlərin olduğunu deyən Komitə sədrinin müavini bu problemlər sırasında bölgələrdə erkən nikah və qızların təhsildən yayındırılmasını vurğulayıb. O, bu istiqamətdə davamlı olaraq maarifləndirmə işlərinin aparıldığını diqqətə çatdırıb.

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun “Siyasətin fəlsəfəsi və sosiologiyası” şöbəsinin müdiri, professor Rəna Mirzəzadə isə çıxışında cəmiyyətimizdə gender bərabərliyinin əhəmiyyətindən bəhs edib.

Tədbirdə daha sonra Elm və Təhsil Nazirliyinin sektor müdiri Fuad Qarayev, Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova, Milli Məclis Aparatının Ailə, qadın və uşaq məsələləri komitəsinin məsləhətçisi Aynur Veysəlova-Abbasova, 44 günlük Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Nail Orucovun həyat yoldaşı, BDU-nun filologiya fakültəsinin I kurs tələbəsi Nigar Ağamalıyeva, Vətən müharibəsi şəhidi, Silahlı Qüvvələrin kiçik giziri Şahmar Mənəfovun həyat yoldaşı, 53 saylı orta məktəbin müəllimi Bəyim Mənəfova, BDU-nun III kurs tələbəsi Nəzirə Dursunova və BDU-nun I kurs tələbəsi Nuranə Payızova çıxış ediblər. Çıxışlarda bildirilib ki, ölkəmizin ümumi təhsil müəssisələrində müəllimlərin 81,9 faizi, orta ixtisas təhsil müəssisələrində 81,3 faizi, ali təhsil müəssisələrində 57,4 faizi, tibb sahəsində fəaliyyət göstərən həkimlərin isə üçdə ikisi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsilalanların 46,6 faizini, orta ixtisas təhsili müəssisələri tələbələrinin 61,9 faizini, ali təhsil müəssisələri tələbələrinin isə yarısını zərif cinsin nümayəndələri təşkil edir. Diqqətə çatdırılıb ki, qadınların elmin inkişafında da müstəsna rolu var. Belə ki, elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən isə 9-u qadındır. Qeyd olunub ki, qadınların təhsilli olması, onların ailədə təlim-tərbiyəsi vətənpərvər nəslin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Bu fakt ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması uğrunda gedən müqəddəs mübarizədə bir daha təsdiqləndi.

Sonra ali məktəblərə qəbul olunmuş qadınlara mükafatlar təqdim olunub.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabr ayının 6-da YAP Salyan rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Salyan rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

# Türkiyədən sülh üçün növbəti addım

Rəsmi Ankara oktyabrın sonuna qədər Ukraynadakı münaqişənin həlli üçün beynəlxalq görüş təşkil etməyi planlaşdırır. Bu barədə “Bloomberg” məlumat yayıb. Məlumata görə, müxtəlif ölkələrin milli təhlükəsizlik müşavirləri, o cümlədən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan məsləhətləşmələr üçün İstanbula gələcək. Gündəmin mərkəzində Ukrayna Prezidenti Volodimir Zelenskinin sülh planı və Kiyevin bu təşəbbüsü müzakirə etmək üçün 2023-cü ildə qlobal toplantı təşkil etmək niyyəti olacaq. İstanbulda təşkil ediləcək danışıqlar iyunda Danimarkada və avqustda Səudiyyə Ərəbistanında keçirilən məsləhətləşmələrdən sonra üçüncü belə görüş olacaq.

Ümumiyyətlə, Rusiya-Ukrayna müharibəsinin dayandırılması, o cümlədən taxıl böhranının həlli yönündə Türkiyənin göstərdiyi səylər bütün dünyada yüksək dəyərləndirilir. Həqiqətən də, Türkiyə Rusiya-Ukrayna müharibəsinin dayandırılması, eləcə də müharibənin yaratdığı humanitar problemlərin qarşısının alınması üçün böyük fəallıq göstərir. Türkiyənin bu yöndə təşəbbüsləri müharibə aparan ölkələr tərəfindən də təqdir olunur. Rəsmi Ankara bölgədə sabitliyin təmin olunması üçün müntəzəm olaraq həm Kreml, həm də Kiyevlə təmasdadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hər iki ölkənin lideri ilə danışıqlar aparır. Türkiyə böyük dövlətdir və bölgədə baş verən proseslərə təsir imkanları var. Son illər Türkiyə regional güc kimi özünü təsdiq edib. Yaxın Şərq böhranı ilə bağlı rəsmi Ankaranın oynadığı rol beynəlxalq birliyə çox yaxşı məlumdur. Hazırda isə Rusiya-Ukrayna müharibəsinin tezliklə bitməsi üçün Türkiyənin böyük fəallığı göz önündədir. Xatırladaq ki, ötən il uzun müzakirələrdən sonra taxıl sazişi üzrə iyulun 13-də İstanbulda Türkiyə, Ukrayna, Rusiya və BMT nümayəndələrindən ibarət dördtərəfli görüş keçirilmişdi. Bu görüşün nəticəsi olaraq ötən il iyulun 22-də həmin məkanda taxıl ixracına dair saziş imzalandı. Sazişə uyğun olaraq, İstanbulda Rusiya və Ukrayna, BMT və Türkiyə nümayəndələrindən ibarət Birgə Koordinasiya Mərkəzi yaradılmışdı. “Taxıl və ərzaq mallarının Ukrayna limanlarından təhlükəsiz daşınması təşəbbüsü” razılaşmasına əsasən, müxtəlif ölkələrə onmilyonlarla ton Ukrayna taxılı daşındı. Saziş Türkiyənin fəal diplomatiyası nəticəsində bir neçə dəfə uzadıldı. Lakin Qərb dövlətlərinin öz vədlərini yerinə yetirməməsi səbəbindən Rusiya bu ilin iyulundan sonra taxıl sazişinin uzadılmasından imtina etdi.

Qeyd etdiyimiz kimi, Türkiyənin təşəbbüslərinə müharibənin tərəfi olan hər iki ölkə etimad göstərir. Nəzərə alaq ki, ABŞ və Avropa İttifaqı ölkələri, eləcə də Böyük Britaniya Ukraynaya fəal dəstək verir. Bu da Rusiya tərəfindən qəbulolunmaz hesab edilir. Rusiyanı dəstəkləyən ölkələr isə Ukrayna tərəfindən qəbul olunmur. Amma qardaş Türkiyə iki ölkə arasında müharibənin bitməsi üçün heç bir maraq güdmədən, səmimi olaraq çalışır. Türkiyə müharibədən əziyyət çəkən insanlara humanitar yardım göstərir, eləcə də onun vasitəçiliyi ilə münaqişə zonalarında dinc əhali üçün humanitar dəhlizlər açılıb. Xatırladaq ki, ötən il Antalya Diplomatiya Forumu çərçivəsində Rusiya və Ukrayna xarici işlər nazirlərinin görüşü keçirilmişdi. Eyni zamanda, Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbulda keçirdiyi görüş sülh prosesinə müsbət təkan verdi. Rusiyanın Kiyev və Çerniqovda hərbi əməliyyatlarını əhəmiyyətli dərəcədə azaltmaq qərarı həqiqətən də mühüm addım idi və bu, İstanbul görüşünün nəticəsində baş verdi. Bu proseslərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderlik keyfiyyəti də xüsusi vurğulanmalıdır. Məhz bu səbəblərə görə, Ərdoğanın Nobel mükafatına layiq görülməsi təklif olunmuşdu. Çünki Rəcəb Tayyib Ərdoğan Türkiyənin lideri olaraq Rusiya-Ukrayna müharibəsinin dayandırılması üçün təkcə çağırışlar etmir, eyni zamanda, vacib addımlar atır. Ərdoğanın rəhbərliyi ilə Türkiyə diplomatiyası sülh quruculuğuna hədəflənib. Hazırda da rəsmi Ankara müharibənin tamamilə dayandırılması üçün sülh təşəbbüslərini davam etdirir.

***NARDAR***

# Protokol imzalanıb

BP şirkətinin Azərbaycan ofisində Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və BP şirkəti arasında təhlükəsizlik və mühafizə sahəsində qarşılıqlı əməkdaşlıq barədə Protokol imzalanıb. Sənədi agentliyin rəisi, general-mayor İlqar Abbasov və BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz imzalayıblar. Bununla bağlı keçirilmiş tədbirdə çıxış edən Qəri Counz tədbiri açıq elan edərək agentliyin nümayəndə heyətini salamlamış, daima qarşılıqlı əməkdaşlığa görə agentliyin əməkdaşlarına minnətdarlığını bildirmiş, imzalanacaq protokolun şirkətlə agentlik arasındakı münasibətləri yeni və daha yüksək səviyyəyə qaldıracağını qeyd edib.

Tədbirdə çıxış edən Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi, general-mayor İlqar Abbasov BP şirkətinin Azərbaycanla tərəfdaşlığının tarixindən bəhs edərək şirkətin ölkəmizdə həyata keçirdiyi layihələrlə Azərbaycanın neft və qaz ehtiyatlarının işlənməsində etibarlı və uzunmüddətli tərəfdaş olduğunu vurğulayıb.

İ.Abbasov bidirib ki, şirkətin Azərbaycanın neft və qaz sənayesinin inkişafına verdiyi töhfə daim yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən keçən il BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Dostluq" ordeni ilə təltif olunmuşdur. Bu münasibətlə bir daha agentlik adından Q.Counzu təbrik edib. İ.Abbasov tərəfindən qısa müddət ərzində agentliyin normativ-hüquqi, maddi-texniki bazasının gücləndirilməsi, mühafizənin təşkili və təhlükəsizlik sahəsində digər dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq sahəsində görülmüş işlər barədə qısa məlumat verilib.

Agentliyin rəisi öz növbəsində Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti arasında əməkdaşlıq haqqında Protokolun ixrac boru kəmərləri və onların infrastruktur obyektlərinin etibarlı mühafizəsinin təmin edilməsində mühüm əhəmiyyət kəsb etdiyini, qarşılıqlı əlaqələri dərinləşdirmək və inkişaf etdirmək niyyətilə imzalandığını və hər iki tərəfin mənafeyinə xidmət edəcəyini bəyan edib. Protokol mühafizə və təhlükəsizlik məsələləri ilə bağlı məlumat mübadiləsinin aparılması, bu sahədə peşəkar kadrların hazırlanması, təkmilləşdirmə və ixtisasartırma kurslarının, treninqlərin, seminarların təşkili və keçirilməsi, baş verə biləcək fövqəladə hadisələrin qarşısının alınması və aradan qaldırılması üzrə birgə taktiki təlimlərin keçirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi məqsədilə məsləhətləşmələrin aparılması, ixrac boru kəmərlərinin və onların infrastruktur obyektlərinin təhlükəsizliyi sahəsində qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi məqsədilə SOMDA-nın aidiyyəti vəzifəli şəxslərinin BP şirkətinin neft hasilatında iştirak etdiyi digər ölkələrə tanışlıq xarakterli səfərlərinin təşkili, ixrac boru kəmərləri və onların infrastruktur obyektlərinin təhlükəsizliyinə təsir edə biləcək təhdid və risklərin müəyyənləşdirilməsi məqsədilə aidiyyəti mütəxəssislərin iştirakı ilə hər 6 ayda bir dəfə monitorinqlərin keçirilməsi, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş ixrac neft və qaz boru kəmərləri və onların infrastruktur obyektlərinin məsləhətləşmə və mühafizə zonalarında hüquqi və fiziki şəxslər tərəfindən aparılan fəaliyyətin (kənd təsərrüfatı, yaşayış və qeyri yaşayış binalarının tikintisi, təmiri və sair) onlara verilən müvafiq icazələrin və bpAzərbaycan tərəfindən verilən texniki şərtlərin tələblərinə uyğun həyata keçirilməsinə nəzarətin gücləndirilməsi, sosialyönümlü layihələr sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə zidd olmayan, tərəflərin qarşılıqlı olaraq razılaşdırdıqları hər hansı digər əməkdaşlıq sahələrini əhatə edir.

Tədbirin sonunda Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi ilə mühafizə və təhlükəsizlik sahəsində sıx əməkdaşlığa görə BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, şirkətin Xəzər bölgəsində Xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezdenti Bəxtiyar Aslanbəyli və Avrasiya regionu üzrə təhlükəsizlik məsələləri üzrə baş meneceri Kamran Rəcəbliyə İlqar Abbasovun 23 avqust 2023-cü il tarixli əmri ilə verilmiş "strateji obyektlərin mühafizəsi orqanlarının yaradılmasının 30 illiy"i yubiley medalı təqdim edilib.

Tədbirdən sonra Qəri Counzun dəvəti ilə agentliyin nümayəndə heyəti şirkətin Təhlükəsizlik və situasiyaların idarə edilməsi mərkəzində olub, burada, xüsusilə, sualtı boru kəmərlərinin mühafizəsinin təmini məqsədilə tətbiq edilən müasir yeni elektron təhlükəsizlik sistemləri, baş verə biləcək böhran, qəza və s. vəziyyətlərin idarə edilməsi, insan tələfatının qarşısının alınması məqsədilə görülmüş işlər, kibertəhlükəsizlik, logistika, bütövlükdə, mühafizə sahəsində müasir texnologiyaların, xüsusilə süni intellektdən istifadə barədə ətraflı məlumat verilib. Həmçinin, Qəri Counz yeni neft-qaz lahiyələrinin həyata keçirilməsi zamanı Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi ilə əməkdaşlığın ediləcəyini vurğulayıb.







**Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi ilə BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti əməkdaşlıq edəcək**

# İki bədbəxt birlikdə xoşbəxtdirmi?

İspaniyanın Qranada şəhərində oktyabrın 5-də keçirilən Avropa Siyasi Birliyinin Sammiti çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin hələ xeyli müddət bundan əvvəl anonsu verilən görüşü baş tutmadı. Bunun səbəbi ilk növbədə formatla bağlı idi. Məlum oldu ki, liderlərin görüşünün Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, eləcə də Almaniya kansleri Olaf Şoltsun və Fransa prezidenti Emmanuel Makronun iştirakı ilə keçirilməsi nəzərdə tutulur. Azərbaycan Brüssel formatında tərəf saxlayan Fransanın qatılmasına etiraz edir. Lakin ölkəmizin haqlı etirazına rəğmən, Emmanuel Makronun görüşə qatılması planlaşdırılıb. Belə olan halda Azərbaycan qardaş Türkiyənin də masada yer almasını istəyib. Bu təklif qəbul olunmadıqda isə Prezident İlham Əliyev qardaş Türkiyəyə növbəti dəfə həmrəylik jesti edərək Qranadaya getməyib. Beləliklə də, ilk növbədə Fransanın günahı ucbatından liderlərin növbəti görüşü pozulub.

## Fransa və Ermənistanı birləşdirən "dəyərlər"...

Fransa ilə Ermənistanın iqtisadi və siyasi çəkisi müqayisəyəgəlməz dərəcədə fərqlidir. Fransa iqtisadiyyatının həcminə görə Avropa İttifaqının (Aİ) ikinci ən böyük dövlətidir. Ermənistan isə Cənubi Qafqazın forpost dövlətidir. Bununla belə, Fransa və Ermənistan bütün parametrlər baxımından bir-birindən kəskin fərqlənmələrinə rəğmən, necə deyərlər, "siam əkizləri" kimi çıxış edirlər. "Ermənistan kimi bir dövlət Fransanın nəyinə lazımdır" sualının cavabı yoxdur. Ancaq biz Fransanın Ermənistanı daim himayə etdiyinin şahidi oluruq. Prezident Emmanuel Makron həmişə "kiçik bacı" Ermənistanın arxasında və yanında dayanacağını bəyan edib. Bu ölkənin parlamentində 44 günlük müharibə dövründə və postmüharibə mərhələsində bir necə dəfə Azərbaycan əleyhinə qərəzli qətnamələr qəbul olunub. Emmanuel Makronun BMT Təhlükəsizlik Şurası rəzaləti hər kəsə bəllidir. Fransa indiyədək Ermənistanın Azərbaycana qarşı əsassız iddialarını BMT TŞ-də müzakirələrə çıxarıb və hər dəfə də istədiyi sənədi qəbul etdirməyə nail olmayıb. Sual olunur: Belə tərəf saxlayan Fransanın Azərbaycan və Ermənistan liderlərinin görüşündə, ümumiyyətlə iki ölkə arasında başlayan sülhyaratma prosesində iştirak etməyə haqqı çatırmı? Əsla! Bəs onda Emmanuel Makron nə üçün yerini bilmir və yuyulmamış çömçə kimi özünü ortalığa atır?

Fransa və Ermənistanı "iki bacıdan" daha çox iki bədbəxtə bənzətmək daha doğru olardı. Onları bir araya gətirən ən mühüm amil isə Türkiyə xofu və nifrətidir. Ermənistan qardaş ölkəyə qarşı soyqırımı və ərazi iddiaları sərgiləyir. Belə iddiaların heç bir əsası yoxdur. Türkiyə dəfələrlə bəyan edib ki, qoy tarixlə tarixçilər məşğul olsunlar. Arxivlər açılsın, sənədlər araşdırılsın. Ancaq öz siyasətini daim feyklər üzərində quran Ermənistan arxivlərin açılmasına bir növ tabu kimi yanaşır. Çünki bu ölkədə yaxşı bilirlər ki, tarixdə "erməni soyqırımı" baş verməyib, bu, uydurmadır, erməni mifidir. Əksinə, ermənilər zamanında onlara sığınacaq verən və himayə edən Türkiyə dövlətinə qarşı xəyanətkarlıq və satqınlıq ediblər, qardaş ölkənin düşmənlərinin sıralarında yer alıblar. Bu, artıq bir erməni xislətidir və biz bunu hazırda Ermənistanın Rusiyaya arxa çevirməsinin timsalında bir daha izləyirik.

Ermənistanın əsassız iddiaları Türkiyəyə əbədi nifrət bəsləyən Fransanın işinə yarayır. Fransa Ermənistanın Türkiyəyə və Azərbaycana olan əsassız iddialarının arxa plana keçməsini istəmir. Bəllidir ki, Türkiyə Ermənistanın iddialarına rəğmən, bu ölkə ilə siyasi dialoqa başlamağa hazır olduğunu dəfələrlə publik şəkildə bəyan edib. Yetər ki, Ermənistan özünün əsassız mövqeyindən geri çəkilsin, Azərbaycanla sülh prosesində səmimilik ortaya qoysun. Əslində, Ermənistanın öz əbədi qonşuları olan Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırmaqdan başqa çıxış yolu yoxdur. Təcrid siyasəti bu ölkəyə yaxşı heç nə gətirməyib. Türkiyə və Azərbaycanın birlikdə reallaşdırdıqları bütün nəqliyyat və enerji layihələrindən kənarda qalan Ermənistan investisiya cəlbediciliyini tam şəkildə itirib və dalan ölkəyə çevrilib. Ermənistanı Azərbaycana və Türkiyəyə qarşı aqressiv davranışlara sövq edən isə Fransadır. Sonuncu yanan odun üstünə yağ tökür və ehtirasları qızışdırır.

Bunu təsdiqləyəcək çoxsaylı faktlar sadalamaq mümkündür. Bunlardan yalnız sonuncusuna diqqət çəkmək istərdik. Xəbər verildiyi kimi, bu günlərdə Fransanın xarici işlər naziri Katrin Kolonna Ermənistana səfər edib. Bununla bağlı fransalı nazir "X" hesabında etdiyi paylaşımda belə yazıb: "İlk səfərimdən 5 ay sonra yenidən Ermənistandayam. Dostluq, dəstək və həmrəylik". Xanım nazirin bu paylaşımına əhəmiyyət verməmək olardı. Ancaq o, İrəvana səfəri ilə bağlı paylaşımında Türkiyənin ərazisi olan Ağrı dağının şəklini verməyi də məqsədəuyğun sanıb. Bu paylaşımdan o nəticə hasil olur ki, Katrin Kolonna və təmsil etdiyi ölkə Ağrı dağını Ermənistan sayır. Şübhəsiz ki, Fransa XİN-in rəhbəri coğrafiyanı bu dərəcədə zəif bilən birisi deyil. Bəs o, İrəvana səfərindən bəhs etdiyi halda niyə paylaşımında Ağrı dağının şəklini yerləşdirir? Deməli, fransız nazirin qərəzi sağlam məntiqin, diplomatik etiketin, tarixi



həqiqətlərin fövqündə dayanır. Əslində, K. Kolonnanın qərəzi başda Prezident Emmanuel Makron olmaqla bütün Fransa elitasının Türkiyəyə qəzəb və nifrətinin ifadəsidir. Türkiyə son 20 ildə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə böyük uğurlara imza atıb. Təkcə cari ilin əvvəlindən bəri qardaş ölkənin dövlət başçısı Türkiyənin innovativ sənayesinin, o cümlədən də müdafiə sənayesinin bir neçə möhtəşəm uğurunu - yeni məhsullarını təqdim edib. Bunlar Türkiyəni quruda, havada, suda möhkəmləndirir, qlobal önəmini daha da atırır. Fransa kimi ölkələr isə Türkiyənin uğurlarını həzm edə bilmirlər. Qardaş ölkə inkişaf etdikcə, möhkəmləndikcə Fransanın qəzəbi və nifrəti daha da artır.

## 64 il Türkiyənin üzünə bağlı qalan Aİ qapıları

Avropa İttifaqının qapılarının 64 il ərzində Türkiyənin üzünə qapalı qalması Qərbin riyakarlığının və qardaş ölkəyə qəzəbinin ən bariz ifadəsidir. Türkiyə 1958-ci ildə yaradılmış Avropa İqtisadi İttifaqına (hazırda sıralarında 27 dövləti birləşdirən Avropa İttifaqı -Aİ) 31 iyul 1959-cu ildə tərəfdaşlıq üçün müraciət ünvanlayıb. Bu, qardaş ölkənin Aİ-yə uzatdığı ilk əməkdaşlıq əli idi. AİI-nin Nazirlər Şurası Türkiyənin müraciətini qəbul edib və üzvlük şərtləri yerinə yetirilənə qədər etibarlı olacaq assosiasiya sazişinin imzalanmasını təklif edib. Sözügedən saziş 12 sentyabr 1963-cü ildə imzalanıb və 1 dekabr 1964-cü ildə qüvvəyə minib. Türkiyə-Aİ əlaqələrinin dönüş nöqtəsi 10-11 dekabr 1999-cu ildə Helsinkidə keçirilən dövlət və hökumət başçılarının Zirvə görüşü olub. Helsinki sammitində Türkiyənin namizədliyi rəsmən təsdiqlənib və digər namizəd ölkələrlə bərabər mövqedə olacağı açıq şəkildə ifadə edilib. 3 oktyabr 2005-ci ildə Lüksemburqda keçirilən hökumətlərarası konfransla Türkiyə rəsmi olaraq Aİ-yə üzvlük danışıqlarına başlayıb.

Aradan onilliklər ötüb. İndiyədək Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə bağlı çoxsaylı görüşlər keçirilib, razılaşmalar əldə olunub. Öz tərəfindən qardaş ölkə üzərinə götürdüyü bütün öhdəliklərə əməl edib. Hətta Türkiyədə Avropa Birliyi Nazirliyi də təsis olunub. Lakin hər dəfə Türkiyənin Aİ-yə üzvlüyünə müxtəlif maneələr törədilib. Qardaş ölkənin Avropa İttifaqına gedən yolunu bəhanələrlə bağlayan ölkələr sırasında Fransa xüsusi canfəşanlıq göstərir. Türkiyənin Aİ-yə gedən yolunu bağlamaq məqsədilə bu ölkənin yüksəksəviyyəli rəsmiləri zaman-zaman absurd bəhanələr ortaya atıblar. İradlardan biri guya Türkiyənin demokratik ölkə olmaması ilə bağlıdır. Bu iddianın heç bir əsası yoxdur. Türkiyə iki turda yekunlaşan və Rəcəb Tayyib Ərdoğanın növbəti qələbəsi ilə başa çatan son prezident seçkiləri ilə bütün dünyaya demokratiya dərsi keçdi. Halbuki Fransada prezident seçkilərinin rüşvətlə maliyyələşdirildiyinə dair məlumatlar transmilli mediada tez-tez tirajlanır.

Türkiyəni Aİ sıralarında arzulamaq istəməyənlər həmçinin qardaş ölkənin müdafiə qabiliyyətini möhkəmləndirməsini, hərbi sənayesini "hədsiz inkişaf etdirməsini" irad tuturlar. Burada da qərəz, gözügötürməzlik açıq-aşkar ortadadır. Bəli, Türkiyə son illərdə hərbi sənaye sahəsində çox irəli gedib. Bu gün Türkiyə NATO-da ikinci ən böyük orduya malik olan bir dövlətdir. Lakin qardaş ölkə heç vaxt özünün hərbi qüdrətindən müstəmləkəçilik siyasəti üçün istifadə etmir və belə bir niyyəti də yoxdur. Aİ-də təmsil olunan Fransa isə açıq-aşkar neokolonializm siyasəti aparır və Afrika ölkələrini iqtisadi təzyiq altında saxlamaqda davam edir.

## Azərbaycanın Qranada görüşündən imtina etməsi təqdirəlayiqdir

Türkiyə Azərbaycan Prezidenti İlham Əliyevin İspaniyanın Qranada şəhərindəki görüşdən imtina etməsini təqdir edir. Bunu Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çelik deyib. O qeyd edib ki, Avropa liderlərinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın beşli formatda (Ermənistan-Azərbaycan-Fransa-Almaniya-Avropa İttifaqı) görüşə qatılmasına etirazları qəbuledilməzdir.

AKP rəsmisi vurğulayıb ki, Fransa uzun müddət Ermənistanı müdafiə edib. Fransanın beştərəfli görüşdə iştirak etməsi, Türkiyənin iştirak etməməsi yolverilməzdir. Azərbaycan Prezidenti də bununla bağlı mövqeyini ortaya qoydu. AKP rəsmisinin sözlərinə görə, Fransa hələ də Ermənistanın işğalçı olduğunu demir: "Azərbaycan isə öz işini çoxdan həll edib. Artıq Qarabağ məsələsi həllini tapıb", - deyə Ömər Çelik vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Fransa Ermənistandan öz maraqları üçün istifadə edir

Azərbaycan dövləti Cənubi Qafqaz regionunda yeni siyasi reallıqlar formalaşdırmaqla bölgənin sabit və təhlükəsiz inkişafını təlqin etməkdədir. Bu istiqamətdə ümumi və ortaq nəticəyə gəlinməsi, bölgənin təhlükəsiz gələcəyinin formalaşdırılması üçün isə sülh və anlaşma mütləq şərt kimi çıxış edir. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində davam edən proses isə bəzi hallarda manipulyasiyaya məruz qoyulur. Cənubi Qafqazda sülhə mane olmaq üçün səy göstərən bəzi ermənipərəst dairələr və dövlətlər, xüsusilə Fransa bu kimi cəhdləri ilə özünün əsl məqsədlərini dünyaya nümayiş etdirir - Paris neokolonist arzularını, siyasi nüfuz dairəsini genişləndirmə cəhdlərini Ermənistanın əli ilə Cənubi Qafqaza daşımağa çalışır. Buna isə müstəqil və milli maraqlara əsaslanan siyasət yürüdən Azərbaycan birmənalı şəkildə "yox" deyir...

**Türkiyə yoxdursa, biz də yoxuq...**

Oktyabrın 5-də Qranadada planlaşdırılan görüşün baş tutmama səbəbi də məhz bu kimi destruktiv yanaşmalardır - Fransa özbaşına və şəxsi korporativ maraqları müstəvisində müəyyənləşdirdiyi bəzi məsələləri "şərt kimi" irəli sürmək istəyir. Məsələn, danışıqlarda Türkiyənin iştirakı Azərbaycan tərəfindən qəti şəkildə qoyulur. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabındakı paylaşımda belə qeyd edib. "Fransanın Cənubi Qafqazda regional sülh və sabitliyi ciddi şəkildə pozan, Avropa İttifaqının regionla bağlı ümumi siyasətini riskə atan qərəzli hərəkətləri və hərbiləşdirmə siyasəti, həmçinin rəsmi Bakının təkidinə baxmayaraq, Türkiyənin region ölkəsi kimi iştirakına razılıq vermədiyinə görə Azərbaycan Qranada görüşündə iştirak etməmək qərarına gəlib. Biz də İspaniyanın bu formatda ev sahibi ölkə kimi iştirakını dəstəkləmişik. Bəzi beynəlxalq media resurslarında bunu Azərbaycanın Ermənistanla danışıqlardan imtinası kimi təqdim etmək düzgün deyil", - paylaşımda qeyd olunub.

**Paris "bir köynək" yaxın olduqlarını...**

Azərbaycan hər zaman bəyan edib ki, sülh iki dövlət arasında Cənubi Qafqazın gələcək inkişafını və sabitliyi dəstəkləyən şərtlərə əsaslanaraq imzalanmalıdır. Fransa kimi nəsnələr isə yalnız və yalnız prosesdə "araqarışdıran" obrazı formalaşdırır. Məsələn, Azərbaycan olmadan qəbul edilən "bəyanat" nəyin göstəricisidir? Və ya bu bəyanatın hansı siyasi yükü, çəkisi ola bilər. Sülh bağlayacaq tərəflərin birinin iştirakı olmadan qəbul edilən hər hansı bir sənəd yumşaq şəkildə desək, keçərsiz və dəyərsizdir. Düzdür. Həmin bəyanatda da Azərbaycanın ərazi bütövlüyü imzası ilə bu "bəyanatı" təsdiqləyən ölkələr, xüsusilə Ermənistan tərəfindən tanınır - amma bu da yenilik deyil. Ermənistan artıq dəfələrlə bəyan edib ki, Azərbaycanın ərazi bütövlyünü detallı şəkildə tanıyır.

Maraqlıdır ki, "Ermənistanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına sarsılmaz dəstəklərini" vurğulayanlar Azərbaycanla bağlı analoji fikirlərini bölüşmürlər - axı, Azərbaycan 30 ildən sonra ərazisindəki xuntanı diz üstə çökdürərək suverenliyini bərpa edib. Bu ikili standart nəyin göstəricisidir? Yenə də eyni koordinat - Fransa 30 il ərzində olduğu kimi işğalçıya, separatçıya "bir köynək" daha yaxın olduğunu göstərir...



**Yeni siyasi oyunlar...**

Qranadada özünəməxsus spekulyasiyaya hazırlaşan Fransanın arzusu ürəyində qaldı - onların Qarabağın erməni sakinləri ilə bağlı başlatmağa çalışdıqları şou fiaskoya uğradı. Məlum "bəyanata" nəzər yetirdikdə bunun şahidi oluruq - Fransa öz arzusu ilə Azərbaycan torpaqlarını tərk edən Qarabağ ermənilər üzərindən mümkün qədər siyasi oyunlar oynamaq "eşqindədir". Öz arzusu ilə Ermənistana keçən ermənilərin üzərindən imitasiyalar etməyə çalışanlar İrəvana silah yardımı etməyin "yolunu" humanitar adı altında pərdələməkdə görür - onlar Ermənistana "əlavə humanitar yardım" haqqında danışırlar.

**"Beynəlxalq" pərdələmə...**

Fransa unutmamalıdır ki, son bir ilə yaxın müddətdə "beynəlxalq meydanlarda", xüsusilə dünyanın "ən əsas masasında" - BMT TŞ müstəvisində üç dəfə Azərbaycana açıq şəkildə məğlub olub. Fransanın iddiaları qeyri-ciddi, əsassız sayılıb. Parisin başı aşağı əyilib - buna səbəb də bu ölkənin qərəzi, əsassız iddiaları olub. Fransa yenə də eyni situasiyaya doğru sürətlə "irəliləyir". BMT missiyasının yekun bəyanatına məhəl qoymayan Fransa özündən şərtlər uydurur, situasiya "formalaşdırır", ermənilərin "hüquqları" haqda yalan təbliğat qurmaq istəyir. Amma artıq bu kimi yalanlar işləmir. Parisin üçqat məğlubiyyəti də təsdiq edir ki, həqiqətin və ədalətin müdafiəçiləri kifayət qədər çoxdur.

Ən əsası isə Azərbaycan reinteqrasiya ilə bağlı mühüm addımlar atır - Qarabağın erməni sakinləri bütün vətəndaşlarla bərabər hüquqlara malik olurlar, reinteqrasiya proqramında əksni tapan yüksək birgəyaşayış müddəaları yerinə yetirilir. Fransanın "qahmar çıxması"na ehtiyac yoxdur...

**4 minə yaxın vətəndaşımız...**

O ki qaldı, saxlanılanların azad edilməsi, itkin düşənlərin taleyi və minalardan təmizləmə səyləri ilə bağlı çağırışlara burada da qeyri-səmimilik özünü göstərir - axı Fransa illərlə Azərbaycana qarşı edilən haqsızlıqlarla bağlı bir dəfə də ağzını açıb bir bəyanat verməyib! Azərbaycanın 4 minə yaxın taleyi müəmmalı olan vətənədaşı haqqında bir dəfə də olsun bir sənəd "qaralamayıb".

Cinayətkarlar isə hər zaman öz cəzasına çatırlar. Fransanın son səylərinin hədəfi məlumdur - hüquqi dövlət olan Azərbaycanda qanunu pozan hər kəs ədalət mühakiməsi qarşısında cavab verir. Kimliyindən asılı olmayaraq...

*P.İSMAYILOV*

# Humanitar yardım, yoxsa Ermənistan üzərindən yuyulan çirkli pullar?

Hazırda Avropa İttifaqı (Aİ) Ermənistana növbəti yardım paketini reallaşdırmaqdadır. "Aİ Ermənistana 25 milyon avrodan çox yardım ayıracaq". Bunu Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilən Avropa Siyasi Birliyinin Sammiti ərəfəsində deyib. Onun sözlərinə görə, Aİ Ermənistana indiyə qədər 5,2 milyon avro ayırıb: "Bu məbləğ artıq 10,2 milyon avroya çatdırılıb. Daha 15 milyon avro yardım ayrılacaq", - deyə Ursula fon der Lyayen vurğulayıb.

## Şübhəli səxavətlilik

Bir sıra hallarda maliyyə azlığından gileylənən, Avropaya gələn miqrantların ehtiyaclarını qarşılamağa əsla tələsməyən Aİ kiçik Ermənistana münasibətdə səxavət kisəsinin ağzını həmişə geniş açıb. Qurum bu ölkəyə demokratiyanın inkişafına dəstək, vətəndaş cəmiyyətinə kömək, regionlarda sosial infrastruktur quruculuğu, məktəb tikintisi və s. cəlbedici adlar altında qrantlar ayırır. Söhbət böyük pullardan - milyonlarla avrodan gedir.

Bəs ayrılan qrantlar doğrudanmı ehtiyac duyulan məqsədlərə xərclənir? Başqa bir sual: Avropa İttifaqı Ermənistana münasibətdə inanılmaz səxavətlilik nümayiş etdirərkən həqiqətənmi səmimidir? Hər iki suala müsbət məzmunlu cavab vermək əsla mümkün deyil. Əvvəla, Ermənistanda məmurların korrupsiyaya bulaşdığı barədə geniş məlumatlar var. Bu ölkədə son vaxtlarda baş tutan həbslərin də böyük əksəriyyəti məhz rüşvət qalmaqalları ilə bağlı olub. Vəziyyət o dərəcədə kritikdir ki, hətta orduya, əsgərlərin adi ehtiyaclarının qarşılanmasına ayrılan kiçik büdcə də generallar tərəfindən mənimsənilir. Bunlar Ermənistanın real mənzərəsini əks etdirir.



Avropa İttifaqına gəldikdə isə, qurumun da tarixində rüşvət qalmaqalları çox olub. Aİ-nin Ermənistan kimi ölkələr üzərindən çirkli pulları yuduğuna dair səsləndirilən iddialar qurum tərəfindən təkzib olunmayıb. Ötən ilin sonlarında bütün dünyaya, xüsusilə də Şərq aləminə demokratiya, şəffaflıq və əxlaq dərsi keçmək iddiasında olan "qoca qitə"nin mühüm təsisatlarından olan Avropa Parlamentinin adı yeni bir rüşvət qalmaqalı ilə gündəmə gəldi. Belçika Federal Prokurorluğunun Avropa Parlamentinin vitse-prezidentlərindən biri olan yunanıstanlı deputat Eva Kailinin də iştirak etdiyi korrupsiya üzrə istintaqın başlandığını və AP-də çalışan 10 nəfərin kompüter sistemlərinə girişinin bloklandığını açıqlaması "qoca qitə"də bir növ soyuq duş effekti yaratdı. Hətta Avropa İttifaqı məkanından kənar coğrafiyalar üzrə də müxtəlif məsələlərlə bağlı qərarlar və qətnamələr imzalayıb bunları etalon sənədlər kimi təqdim edən AP-də korrupsiya? Əgər belə bir iddia quruma üzv olmayan kənar bir dövlətdən gəlsə idi, AP dərhal bunu qərəzçiliklə əlaqələndirər və deputatlar həmin ölkəni, yumşaq desək, ağ yuyub qara sərərdilər. İndiki halda isə AP ilə bağlı rüşvət ittihamları "qoca qitə"nin siyasi mərkəzlərinin birindən eşidilirdi və burada özünümüdafiəyə yer yox idi. Hadisələr ildırım sürəti ilə inkişaf etdi. Artıq dekabrın 11-də məlum oldu ki, Avropa Parlamentinin vitse-prezidenti, yunan əsilli siyasətçi Eva Kaili və daha 3 nəfər Qətərdə keçirilən futbol üzrə dünya çempionatı ilə bağlı korrupsiya faktı üzrə ittiham olunaraq həbsə alınıblar. Belçika Prokurorluğundan verilən məlumata görə, istintaq çərçivəsində evlərdə və ofislərdə olmaqla təxminən 20 ünvanda reyd və axtarışlar aparılıb. Axtarışlar nəticəsində şübhəli şəxsin evindən 600 min avro, Brüsseldə hotel otağında çantada bir neçə yüz min avro, Avropa Parlamenti deputatının mənzilində isə 150 min avro aşkar edilib.

## Od olmayan yerdən tüstü çıxmaz

Aİ-nin Ermənistana 25 milyon avro yardım ayırması rüşvət ehtimallarını yenidən gündəmə gətirib. Ermənistan kimi korrupsiyaya bulaşmış, hesabatlılığın təmin olunmadığı ölkələrdə "qoca qitə"də geniş vüsət almış çirkli pulların yuyulması mexanizmlərinin reallaşdırılması asandır. Burada, necə deyərlər, bütün tərəflər ciblərini doldururlar. Layihələrə məsul olan milli koordinatorlar və Aİ komissarları "gör məni, görüm səni" prinsipindən çıxış edirlər. Ayrılan qrantların böyük hissəsi məhz milli koordinatorlarla Aİ komissarları arasında dövr edir. Layihələrin icrası isə illərlə, daha dəqiq desək, növbəti qrantların ayrılmasınadək təxirə salınır. Beləcə qapalı dövrə davam edir. Hər dəfə bir çimdik iş üçün milyonlarla avro silinir.

Od olmayan yerdən tüstü çıxmaz, deyiblər. Aİ-nin yardım məqsədilə ayırdığı 25 milyon avronun böyük hissəsinin çirkli pulların yuyulması prosesində mənimsənilləcəyi ehtimalları da bu ölkənin əvvəlki illərdə təkrarlanan utancverici təcrübəsindən qaynaqlanır. "Avropa İttifaqının Ermənistana ayırdığı qrantlar genişmiqyaslı korrupsiyaya uğrayıb". Belə bir məlumatı bir neçə il bundan əvvəl Ermənistan istintaq komitəsi publik şəkildə yaydı. Məlumatda qeyd edilirdi ki, korrupsiya faktının aşkar edilməsində Fırıldaqçılığa qarşı Mübarizə İdarəsinin Avropa ofisi iştirak edib. Söhbət yarım milyon avronun mənimsənilməsindən gedirdi.

Ermənistanda seçki prosesində Aİ-nin 7 milyon avrosunun it-bata düşməsi qalmaqallı da yaddaşlardan silinməyib. Bəli, Aİ-nin 7 milyon avroluq seçki mexanizmləri səsvermə günü bu layihənin müəlliflərini ifşa etdi. Bununla bağlı hətta istintaq işi də açıldı. Bundan sonra Aİ-nin Ermənistandakı səfiri P.Svitalskinin özü də ortada siyasi korrupsiyanın olduğunu etiraf etmək məcburiyyətində qaldı

Bunlar Aİ-Ermənistan korrupsiya münasibətlərində aşkarlanan azsaylı faktlardır. Əslində isə çirkli pulların yuyulması daimi fəaliyyətdə olan bir mexanizmə çevrilib...

*Mübariz FEYİZLİ*

# Yeni qaydalar...

## Taksi fəaliyyətində keyfiyyətin artırılmasına səbəb olacaq

*N.TUNAR*

Uzun müddət idi ki, ölkəmizdə taksi xidmətdində nizam-intizam yox idi. Müxtəlif taksi şirkətlərinin fəaliyyətində sürücülərin əksəriyyəti daha çox onlayn qaydada şirkətə üzv olaraq işə başlayırdılar. Sürücülərin bu fəaliyyət üçün lazımi kriteriyalara sahib olub-olmamasına nəzarət edilmirdi. Ona görə də, həmişə istər ətrafımızda olan şəxslərdən, istərsə də sosial şəbəkələrdə taksi şirkətlərinin xidmətindən narazı qalan müştərilərə rast gəlinirdi.

Artıq bu istiqamətdə hökümət tərəfindən müvafiq addımlar atılmasına başlanıb. Oktyabrın 1-dən avtomobil nəqliyyatı vasitəsilə sərnişin və yük daşımaları ilə məşğul olmaq istəyən hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq icazələr əsasında fəaliyyət göstərməlidir. İcazələr Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən 7 il müddətinə verilir. Qanunvericiliyin tələbinə əsasən ölkə daxilində qeyri-müntəzəm sərnişindaşıma, eləcə də yükdaşıma ilə məşğul olan şəxslərə buraxılış vəsiqəsi ödənişsiz veriləcək. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanuna əsasən, eləcə də taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatı Nazirlər Kabineti tərəfindən təsdiq edilən tələblərə uyğun olmalıdır.

Nazirlər Kabinetinin 4 sentyabr 2023-cü il tarixli sərəncamı ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələbləri, həmçinin taksi sifarişi operatorları tərəfindən hər bir taksi sifarişi üzrə real vaxt rejimində ötürülən adsızlaşdırılmış məlumatların, o cümlədən sürücünün iş və istirahət rejimlərinə riayət olunmasına nəzarət məqsədilə sürücü barədə məlumatların siyahısı ilə bağlı təklifləri 4 ay müddətində Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb. Nazirlik tərəfindən hazırlanan müvafiq tələblər hazırda aidiyyəti dövlət orqanları ilə razılaşdırılma prosesindədir. Təsdiq olunacaq texniki göstəricilərə, daxili və xarici tərtibata dair tələblərə cavab verən taksi sərnişindaşımada istifadə edilən nəqliyyat vasitələrinə AYNA tərəfindən buraxılış kartı veriləcək.




Taksi sifarişi operatoru fəaliyyətinə icazə, Azərbaycanla xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara verilən beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsi, ölkədaxili sifarişli daşımalara buraxılış vəsiqəsi isə artıq elektron qaydada AYNA-ya müraciət edilməklə alınmalıdır. Dövlət rüsumu haqqında" qanunda yeniliklərlə taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsinə görə 125 manat, hər bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsinə görə 25 manat, taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsinə görə 3000 manat dövlət rüsumu müəyyən olunur. Buraxılış vəsiqəsi olmadan taksi minik avtomobilləri ilə sərnişin daşınmasının təşkilinə görə vəzifəli şəxslərə 200 manat, hüquqi şəxslərə 1000 manat, buraxılış kartı olmadan taksi minik avtomobilləri ilə sərnişin daşınmasına görə 50 manat cərimə düşür. Əməllərin təkrar törədilməsi halında cərimələr artır.

İcazə olmadan taksi sifarişi operatoru kimi fəaliyyət göstərilməsinə görə vəzifəli şəxslər 10 min manat, hüquqi şəxslər 40 min manat cərimələnir. Cəzalar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir. Ekspertlər də hesab edirlər ki, oktyabrın 1-dən qüvvəyə minən qaydalar taksi sahəsində xidmətin keyfiyyətini artırmağa yönəlmiş qərardır.

# Redikül müxalifət "erməni müdafiəçisi" rolunda...

## AXCP antimilli "təbliğatı" artırır

Son bir aya yaxın müddətdə yaşadığımız qürurlu günlər Azərbaycan tarixinə qızıl hərflərlə həkk olundu. 24 saatlıq antiterror tədbirləri, ardından qondarma xuntanın çöküşünü elan etməsi, qondarma rejim rəhbərlərinin bir-bir həbs olunaraq Bakıya gətirilməsi Azərbaycanın regionda yeni siyasi situasiya yaratdığını təsdiqləyir. Nəzərə alsaq ki, bu gün dünyada olduqca həssas bir geostrateji vəziyyət hökm sürür, rəsmi Bakının apardığı fəaliyyətin miqyası ölçüyəgəlməzdir.

Təəssüfləndirici haldır ki, ermənipərəst təbliğatın "tərkib hissəsinə" çevrilmiş redikül müxalifət baş verən uğurlu siyasi nəticələri qiymətləndirmək əvəzinə, düşmən mövqeyindən çıxış edir, hətta bəzi məqamlarda Azərbaycanı günahlandırmağa, ittiham etməyə çalışır. Xüsusilə, Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-nin azsaylı "sosial şəbəkəçi dəstəsi" və "antimilli şura" üzvləri bu məsələdə fəallıq göstərir. Əldə olunan uğurları həzm etməyən bu kimi şəxslər sosial şəbəkələrdə "dəstəbaşçıları" Ə.Kərimlinin ermənipərəst "fikirlərini" müdafiə edir, ermənipərəst təbliğatın ştrixlərinə əsasən paylaşımlar edirlər. Onlar Fransanın Ermənistanı silahlandırmasını "adi hal" kimi qəbul edir, Azərbaycanın Qarabağda keçirdiyi antiterror tədbirlərini isə "təsadüf" adlandırırlar.

Təbii ki, bu kimi hallar həmin dəstənin ermənilərlə sinxron işlədiklərini ortaya qour. Əli Kərimlinin Qarabağda son baş verənlərin ardından istər sosial şəbəkələrdəki paylaşımlarına, istərsə də internet televiziyalarındakı çıxışlarına nəzər saldıqda bir fakt ortaya çıxır: bu adam təlimatlandırılaraq indiki halda Azərbaycana qarşı maşa kimi istifadə olunur. Buna başqa ad tapmaq da mümkün deyil. Azərbaycan xalqının, siyasi palitranın nümayiş etdirdiyi birliyi görməzdən gələn, bəzi hallarda Ermənistanın geriçəkiləmələrinə və qondarma xuntanın çöküşünə hətta təəssüflənən Əli Kərimlinin mövqeyi anlaşılan deyil. Onun təlimatlandırdığı şəxslər də sosial şəbəkələrdə eyni mövqeyini paylaşır - istər müavinləri, istər yaxın ətrafı Azərbaycanın uğurlarını gözdən salmaq, beynəlxalq müstəvidə qazanılan nailiyyətlərə ləkə yaxmaq cəhdləri aydın şəkildə görünür.

Bu da azmış kimi, Ə.Kərimli yenidən nostalji fikirlərə dalaraq AXC-Müsavat hakimiyyətinin xəyanətkar mövqeyini müdafiə etməyə səy göstərir. Amma bu kimi iddialar sosial şəbəkə izləyiciləri tərəfindən birmənalı şəkildə rədd edilir - həmin günlərin şahidi olan və ya həmin günlər haqda müfəssəl informasiyaya malik insanlar Ə.Kərimlinin də təmsil olunduğu bu hakimiyyəti xəyanətdə, səriştəsizlikdə və alverçi təfəkküründə olmaqda ittiham edirlər. Necə deyərlər, elin gözü tərəzidir...

*MƏNSUR*

# Mövcud durum və perspektivlər

## İKT-dən geniş istifadə ölkənin hərtərəfli inkişafına xidmət edir

*Günel ABBAS*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

Sürətlə dəyişən dünyanın hazırkı dövrünü İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) inkişafı xarakterizə edir. İKT artıq cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib, bizi əhatə edən bütün sahələrə geniş şəkildə sirayət edib.

Təbii ki, yeni texnologiyaların tətbiqi bütün dünyada bərabər şəkildə getmir. Bu, hər bir ölkənin inkişaf tempi və əldə olan daxili imkanlarından daha çox asılıdır. Son illər dünya bazarında elektron ticarətin rolunun artdığını müşahidə edirik. İndi ölkələrin iqtisadi rəqabət aparmaq qabiliyyəti onların İKT-dən səmərəli istifadəsinin əhəmiyyətli dərəcədə artmasına səbəb olur. Hətta ölkələr bu sahənin inkişaf etdirilməsi üçün ardıcıl addımlar atır, nəticədə dövlət siyasətinin prioritetlərindən birinə çevirirlər.

Hazırda Azərbaycanın sosial-iqtisadi həyatında mühüm rol oynayan İKT sahəsi inkişaf səviyyəsinə görə fərqlənir. Ölkəmizdə bu sahənin inkişaf etdirilməsi və gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Dövlət tərəfindən müasir texnologiyaların tətbiqinin təkmilləşdirilməsi, daha informativ cəmiyyətin qurulması üçün daim islahatların aparıldığını görürük.

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən "Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu" İctimai Birliyinin icraçı direktoru Fərid Kazımov İKT-ni cəmiyyətin inkişafında əsas amil hesab edir. Onun sözlərinə görə, bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr İKT-nin verdiyi üstünlüklərdən faydalanırlar: "Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur. Dünya təcrübəsi göstərir ki, İKT dən geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir. Məhz bu texnologiyalar əhalinin sosial-iqtisadi vəziyyətində mövcud olan problemlərin həll olunması üçün tutarlı vasitələrdəndir".

**Texnologiyaların tətbiqində yeni uğurlar**

F.Kazımov qeyd edib ki, son illər Azərbaycanda İKT-dən istifadə sahəsində müəyyən addımlar atılıb: "Bir sıra sahələrdə bu texnologiyaların tətbiqində ciddi uğurlar qazanılıb. Ümumiyyətlə, bu istiqamət dövlət siyasətinin prioritetlərindən birinə çevrilib. Pandemiya ilə mübarizədə bizim köməyimizə gələn vasitələr sırasında yenə də İKT ilk yerlərdən birində qərarlaşır. Təsəvvür edin ki, sosial məsafənin qorunması tələb olunduğu bir şəraitdə ölkənin internet imkanları zəif olsaydı, yaxud heç olmasaydı, nə baş verərdi? Həyat iflic olardı. Hətta burada bir müsbət məqamı da demək istəyirəm ki, pandemiya insanları İKT biliklərini və vərdişlərini artırmağa sövq etdi. Beləliklə, insanlar innovasiyaya daha da yaxınlaşdılar".

Ekspertin qənaətincə, informasiya texnologiyaları tək özü inkişaf etmir, yalnız insanlara kömək olmur, eyni zamanda, digər sferalara da təsir edir: "İnformasiyanın əldə olunması, informasiya azadlığı, məlumatların maneəsiz olaraq yayılması imkanları ölkəmizdə yüksək səviyyədə təmin olunur. Müvafiq hüquq və azadlıqlara konstitutsion dəyər kimi hörmət edilir. Ölkədə informasiya, internet azadlığının təmin olunması ilə bağlı çox mühüm işlər həyata keçirilir. Bu gün Azərbaycan vətəndaşları belə imkanlara malik olduqları üçün məmnundurlar. Son zamanlar kompüter elmləri, informasiya texnologiyaları, informasiya təhlükəsizliyi ilə bağlı yeni ixtisaslar açılıb. Çoxlu sayda gənclər bu istiqamətlərdə ali məktəblərə qəbul olunur, həmin peşələrə yiyələnirlər. Əmək bazarının özündə də bu kadrlara çox böyük ehtiyac var. Bu gün Azərbaycanda ən çox tələb olunan ixtisaslar proqramçılar, kompüter mühəndisləri, informasiya təhlükəsizliyi mütəxəssisləridir.

Ona görə də Azərbaycan təhsili, elmi bu reallıqları məsuliyyətlə anlayır və bütün fəaliyyətini dünyanın bu çağırışlarına, Prezidentin qərarlarının icrasına yönəldir. Sevindirici haldır ki, Azərbaycan bu sahədə dünyada yüksək qiymətləndirilən ölkələrdən biridir. Ölkəmizdə dünyanın qabaqcıl texnologiyalarının transferi, bu sahədə fəaliyyət göstərən nəhəng transmilli şirkətlərin maraqlarının təmin olunması ilə bağlı mərkəz formalaşıb. Həmin mərkəzin yaradılmasında məqsəd ondan ibarətdir ki, Azərbaycanda süni intellekt texnologiyaları tətbiq olunmaqla dövlət orqanlarının fəaliyyətində keyfiyyət və məhsuldarlıq artırılsın".

F.Kazımov vurğulayıb ki, bu gün İKT sahəsində əsas məqsəd beynəlxalq standartlara cavab verəcək inkişafa nail olmaqdır: "Bu, özündə İKT-nin tətbiqi və elektron xidmətlər, həmçinin informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsini ehtiva edir".



# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
PressaInform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Şuşa növbəti dəfə paytaxt şəhəri kimi

## 2026-cı ildə İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı olacaq




İşğaldan azad olunan kimi Qarabağda dərhal bərpa və yenidənqurma işlərinin aparılmasına başlanılması onu göstərir ki, yaxın bir neçə il ərzində burada turizm inkişaf edəcək və bu sahə həmin ərazilərin dirçəlməsində əhəmiyyətli yerlərdən birini tutacaq. Füzuli, Zəngilan və Laçın rayonlarında hava limanlarının tikintisi Şərq-Qərb nəqliyyat dəhlizinin, həmçinin, yükdaşımaların və turizmin inkişafına müsbət təsir göstərəcək. Xüsusilə Şuşa şəhəri həm fəsil, həm də müalicə və unikal memarlıq üslubu baxımından fasiləsiz turizm potensialına malikdir.

Yeri gəlmişkən, 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycan Respublikasının sədrliyi çərçivəsində oktyabrın 4-5-də İran İslam Respublikasının Ərdəbil şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin yüksək səviyyəli turizm ekspertlərinin 7-ci görüşü və turizm nazirlərinin 5-ci iclası keçirilib. Tədbir çərçivəsində üzv dövlətlər arasında turizm sahəsi üzrə mövcud əməkdaşlıq perspektivlərinə dair geniş müzakirə aparılıb, müvafiq sahə üzrə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi istiqamətində görüləcək tədbirlər nəzərdən keçirilib.

İclasda səsvermə nəticəsində Şuşa şəhəri İqtisadi Əməkdaşlıq Təşkilatının 2026-cı il üçün turizm paytaxtı seçilib. Sonda İƏT-in bu qərarı Ərdəbil Bəyannaməsində əks olunub.

### Şuşanın turizm tarixi

Öncə Şuşanın turizm tarixinə qısa nəzər salaq: Tarixi mənbələrə görə, Şuşa şəhərində turizm fəaliyyətinin rəsmi təşəkkülü 1935-1936-cı illərə təsadüf edir. Şuşada ilk istirahət evi 1936-cı ildə istifadəyə verilib. Oradakı pansionat isə 1964-cü ildə yaradılıb, 1970-ci ildən sanatoriyaya çevrilib. Sanatoriya mədə-bağırsaq xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşıb. Bütün keçmiş SSRİ-də məşhur olan Şuşa Turşsu turist bazası isə 1970-ci ildən fəaliyyətə başlayıb və tez bir zamanda SSRİ məkanında məşhurlaşıb.

1971-ci ildə fəaliyyətə başlamış Xankəndi Səyahətlər və Ekskursiyalar Bürosu (SEB) və 1972-ci ildə istifadəyə verilmiş Şuşa "Şəfa" Turist Bazası da bu obyektlər sırasındadır. Turizm və Ekskursiyalar Şurası Qarabağda turizm təyinatlı obyektlərin tikintisini, bütövlükdə bölgənin turizm potensialından istifadə olunması prosesini sonralar yüksələn xətlə davam etdirib. Ardıcıl olaraq 1984-cü ildə Şuşa Səyahətlər və Ekskursiyalar Bürosu, 1986-cı ildə Ağdam Səyahətlər və Ekskursiyalar Bürosu, 1988-ci ildə isə Ağdam "Şahbulaq" Turizm Bazası məhz bu şuranın balansında yaradılıb.

Şuranın rəsmi rəqəmlərinə görə, təkcə 1990-cı ildə Şuşa Turist Bazası 1.178.910 rubl, Şuşa SEB 106.357 rubl, Ağdam Turizm Bazası 1.904 rubl, Ağdam SEB 103.789 rubl həcmində turizm-ekskursiya xidməti göstərib.

### Şuşada "Ev turizmi"

Şuşada respublika və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə tabeli 17 pioner düşərgəsi, respublika üzrə 1 ixtisaslaşmış uşaq sanatoriyası yerləşirdi. Ən böyük şəhərlərdə belə bu sayda məktəb düşərgələri olmayıb. Şuşanın təkrarsız təbiəti, təmiz havası düşərgə layihələrinin buraya salınmasında əhəmiyyətli rol oynayıb.

21-ci əsrdə "Ev turizmi" anlayışı Azərbaycanın bölgələrində yeni-yeni təşəkkül tapsa da, Şuşada "Ev turizmi" hələ ötən əsrin ortalarından mövcud olub. Şuşa şəhəri, eləcə də rayonun Xəlfəli və Turşsu kəndlərində təxminən 2 min ailədən artıq rayon sakini mənzillərini turistlərə kirayəyə verirmiş...

### Şuşa SSRİ-nin əsas turizm mərkəzlərindən biri kimi

Şuşanın infrastrukturu elə qurulmuşdu ki, gələn turist orada hərtərəfli istirahətini təmin edə bilirdi. Şəhərdə geniş yay kinoteatrı fəaliyyət göstərirdi. Təbii ki, Şuşaya həm də müalicə məqsədilə gəlirdilər. Şuşanın quru və saf havası ağciyər, astma, nəfəs borusu xəstəliklərindən əziyyət çəkənlər üçün əvəzsiz idi. O cümlədən, şəhərin mərkəzinə yaxın Turşsu müalicəvi suyu Şuşaya gələnlərin sevimli yeri idi.

Şuşanın əsas gəlir mənbəyi də turizm biznesi hesab olunurdu. Bu da bədxah erməniləri həmişə qıcıqlandırırdı. Çünki Dağlıq Qarabağda mənzərəli yerlər çox olsa da, Şuşa öz qədimliyi və təmiz havası ilə bütün SSRİ-nin əsas turizm mərkəzlərindən biri hesab olunurdu.



Təəssüf ki, 1990-cı illərin əvvəlləri bədnam qonşularımızın Azərbaycana qarşı mənfur niyyəti və işğalçılıq siyasəti nəticəsində bütün bu imkanlar məhv edildi. 30 ilə yaxın işğal dövründə Şuşa başda olmaqla, Dağlıq Qarabağ və ətraf rayonlar talan edildi. Tarixi, mədəni abidələr, eləcə də təbii resurslar tamamilə yağmalandı.

Nəhayət, düz 28 ildən sonra ilahiədalət qalib gəldi - Azərbaycan Ordusu yağı düşməni Qarabağdan, eləcə də onun tacı olan Şuşadan qovdu. Artıq ölkəmizin ərazi bütövlüyü təmin olunub. Şuşa başda olmaqla, işğaldan azad olunan şəhər, rayon və kəndlərimizdə çox sürətlə tikinti-bərpa işləri aparılır.

Şuşa, eləcə də işğaldan azad edilən bütün ərazilər gözümüzün önündə dirçəlir. Şəhər tarixi simasını saxlamaqla ən müasir formada sürətlə bərpa edilir. Burada müasir turizm infrastrukturu yaradılır. Xüsusən də modern memarlıq nümunəsi olacaq yeni məscidin tikilməsi Şuşanın yaxın gələcəkdəki heyrətamiz simasının işartılarıdır.

***Günel ABBAS***

## *İdman*

### Dünya çempionu: Yarış mənə qızıl medalla yanaşı, təcrübə də qazandırdı

"Beş ildir dünya çempionatında qızıl medal qazana bilmirdik. Ona görə də finalda güləşmək mənim üçün böyük məsuliyyət idi".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Portuqaliyanın Odivelas şəhərində gənclər arasında keçirilən dünya çempionatında qızıl medal qazanan Azərbaycan cüdoçusu Vüsal Qələndərzadə deyib.




73 kiloqram çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxan idmançı bildirib ki, dünya çempionu olmaq çox sevindirici haldır: "Mundialda bayrağımızı dalğalandırıb himnimizi səsləndirmək qürurvericidir. Həmin an keçirdiyim hissləri sözlə ifadə etmək çox çətindir".

Yarışın onun üçün əla keçdiyini söyləyən cüdoçu əvvəldən çempion olacağına inandığını vurğulayıb: "Hər şey əla alındı. Əhvali-ruhiyyə yüksək idi. Demək olar ki, heç bir rəqibimlə görüşdə əziyyət çəkmədim və rahat qələbə qazandım. Bu yarış mənə qızıl medalla yanaşı, təcrübə də qazandırdı".

Qeyd edək ki, Vüsal Qələndərzadə həm də gənclər arasında Avropa çempionudur.

### Bişkekdə Azərbaycanın da qatıldığı XVII Delfi Oyunlarına start verilib

Qırğızıstanın paytaxtı Bişkekdə gənclər arasında Müstəqil Dövlətlər Birliyinin XVII Delfi Oyunlarına start verilib.

AZƏRTAC xəbər verir ki, Qırğızıstanın ilk dəfə ev sahibliyi etdiyi yarışda Azərbaycanın bir sıra mədəniyyət və incəsənət təhsil müəssisələri də təmsil olunurlar.

СЕМНАДЦАТЫЕ МОЛОДЕЖНЫЕ ДЕЛЬФИЙСКИЕ ИГРЫ ГОСУДАРСТВ-УЧАСТНИКОВ СНГ • БИШКЕК 2023 •

Oyunlarda iştirak edən 10-25 yaşarası gənclər xalq, klassik və müasir incəsənətin müxtəlif nominasiyaları üzrə mübarizə aparırlar. Oyunlarda, həmçinin ustad dərsləri, rəsmi və elmi-praktik tədbirlər keçirilir.

Qeyd edək ki, MDB iştirakçısı olan dövlətlər arasında keçirilən Delfi Oyunları milli mədəniyyətin qorunub saxlanılması və inkişafına kömək edilməsi, mədəniyyətlərarası dialoqun təşviqi, ölkələr arasında əlaqələrin möhkəmləndirilməsi, MDB ölkələrinin gənclərinin, yaradıcı ziyalıların və tədris müəssisələrinin əməkdaşlığı məqsədilə təşkil olunur.

Müsabiqədə 600-ə yaxın oğlan və qız 10 nominasiya - fortepiano, skripka, akademik oxuma, solo xalq ifaçılığı, estrada ifaçılığı, xalq rəqsi, nəfəs alətlərində ifaçılıq, təsviri sənət, bədii sənətkarlıq və milli alətlər üzrə məharətini nümayiş etdirəcək. Yarışın nəticələrinə görə qaliblərə xüsusi nominasiyalar veriləcək.

Oyunların açılış mərasimi oktyabrın 7-də baş tutacaq.

MDB ölkələrinin Delfi Oyunları 2002-ci ildən bəri keçirilir.






### "Qızlara ağ yaraşır" hədəfinə çatdı!

#### Sosial kampaniya çərçivəsində cüdoqili qızların sayı artıq 1000 nəfərdir

"Azercell Telecom" və Azərbaycan Cüdo Federasiyasının birgə tərəfdaşlığı ilə həyata keçirilən "Qızlara ağ yaraşır" kampaniyası hədəfinə çatdı. Ağ cüdoqi geyinərək sosial təşəbbüsə artıq min qız qoşulub!

"Qızlara ağ yaraşır" sosial kampaniyası qızları inkişaf və idmana təşviq etmək məqsədi daşıyır. Kampaniya eyni zamanda erkən nikah mövzusuna da toxunur.

Kampaniya çərçivəsində Azərbaycan Cüdo Federasiyası tərəfindən məktəbləri və bölmələri olan bölgələrdə qeydiyyatdan keçən 7-14 yaşlı ilk 1000 qıza cüdoqi və 1 ay ödənişsiz məşq hədiyyə olunub. Qızlar artıq mütəmadi olaraq məşqlərdə iştirak edir.

İstəyirik qızlarımız cüdoqi geyinsin, çünki qızlara ağ yaraşır!

"Qızlara ağ yaraşır" layihəsi haqqında ətraflı məlumat əldə etmək üçün:
https://qizlaraagyarasir.az/#

### "Qarabağ" avrokuboklarda unikal göstəriciyə imza atıb

UEFA Avropa Liqasında mübarizə aparan "Qarabağ" klubu ilk iki turdan sonra turnirdə qol buraxmayan üç komandadan biridir.

AZƏRTAC xəbər verir ki, hazırda 6 xalla H qrupunda ikinci olan Ağdam təmsilçisi qapısını toxunulmaz saxlaya bilib.



Qrupdakı ilk matçında Bakıda Norveçin "Molde" klubuna bir cavabsız qolla qalib gələn "köhlən atlar" İsveçdə "Hekken" komandasına da eyni aqibəti yaşadıb - 1:0.

İki turdan sonra Avropa Liqasında qol buraxmayan digər iki kollektiv isə Yunanıstanın "Panatinaikos" və Çexiyanın "Slaviya" (Praqa) klublarıdır.

Çempionlar Liqası və Konfrans Liqasını da nəzərə alsaq, "Qarabağ" bu göstərici ilə qapısını toxunulmaz saxlayan ümumilikdə altı komandadan biridir. Çempionlar Liqasında "Barselona" və "Milan", Konfrans Liqasında isə Fransanın "Lill" klubu ilk iki turda qol buraxmayıb.

Bundan başqa, cari mövsüm avrokubokların qrup mərhələsində qapısında qol görmədən altı xal toplayan cəmi üç komanda var ki, onlardan biri də Azərbaycan çempionudur. Digər iki kollektiv isə "Barselona" və "Slaviya"dır.

### Bolqarıstandakı turnirdə iştirak edəcək Azərbaycan gimnastları bəlli olub

Aerobika gimnastikası üzrə Azərbaycan yığması Bolqarıstanın Plovdiv şəhərində keçiriləcək "Plovdiv kuboku" beynəlxalq turnirində iştirak edəcəklər.

Federasiyadan AZƏRTAC-a verilən məlumata görə, yarışda Azərbaycanı Vladimir Dolmatov, Mədinə Mustafayeva, Xədicə Quliyeva, Leyla Bejanova, Arzu Ağayeva, Sara Əlixanlı, Məryəm Topçubaşova, Sənəm Kazımova, Aylin Əliyeva və Dilarə Qurbanova təmsil edəcək.



Bu yarışın ardınca böyüklərdən ibarət milli komandanın üzvləri Vladimir Dolmatov, Mədinə Mustafayeva, Xədicə Quliyeva, Leyla Bejanova və Arzu Ağayeva Rumıniyanın paytaxtı Buxarestə gedərək, Dünya Kubokunda (13-15 oktyabr) qüvvələrini sınayacaqlar.

Qeyd edək ki, dünən start götürən "Plovdiv kuboku" oktyabrın 8-də yekunlaşacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 6839**
**Sifariş: 2585**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas